GİLƏ BAYRAMOVA

# SƏNİN BAXIŞLARIN

"Yazıçı" nəşriyyatı
Bakı - 2016

Az2
2016

G 63

BBKC 63

**"Sənin Baxışların" Gilə Bayramova**
Bakı, "Yazıçı" nəşriyyatı 2016, 208 səh

**Gilə Bayramovanın kitabında son illərdə yazdığı yetərincə maraqlı, həyati şeirləri toplanıb. Bu poeziya müəllifin iç dünyası, yaşam və gündəmlə bağlı narahatlıqlarından doğan düşüncələrdən qaynaqlanır**

Nəşriyyatın direktoru
**Şəmsi VƏFADAR**

| | |
|---|---|
| Kompüter dizaynı | **Ələsgər HÜSEYNOĞLU** |
| Korrektor | **Aydan ƏLİYEVA** |
| Fotoqraf | **Zemfira MAHMUDOVA** |

**G 5204000294 - (010) / M - 656 - 2016** **qrifli nəşr**

**© YAZIÇI**

# ÖN SÖZ

İnsanlar gözəldir. Hər gözəl insanın qəlbinin öz musiqisi var... Bəlkə də, qəlbindəkini tərənnüm edə bilmir. Ancaq o bir başqa sahədə inkişaf edib. Ancaq yazılmış şeirləri oxuyanda deyir: “Bu ki, mənim həyatımdır.” Axı bu sözlər, fikirlər mənə tanış gəlir. Sadəcə qələmə ala bilmir. Sən özündən bəhs edirsən, gördüyünü yazırsan. Onlarsa, diqqətlə oxuyub şeirin sonunu səbirsizliklə gözləyirlər. Şeirlər ürəyinin səsi, körpə fidan kimidir. Onları sevib-sevdirməlisən. Onların məhəbbəti saf duyğuları, insanları dindirməlidir. Şeirdə sən özünü təmiz görürsənsə, demək ki, cəmi insanlığı təmiz görürsən. Qəlbinin odunu, ürəyini, isti nəfəsini qoyursan şeirə. Çünki sevilmək istəyirsən. Gözünü yumub gözəl bir əsəri dinlədiyin kimi, cuşa gəlib əlinə qələm alırsan. Çünki hansısa bir qüvvə sənin əlini, ayağını yerdən üzür, dilin, əllərin titriyir. Tezcə yazmaq istəyirsən. İlham pərisi deyirlər ha, doğrudan da, elədir. Öz içimdə söhbət edib, fikrimi, duyğumu susuzlanmış ürək yanğımı içimdə hiss edirəm və qələmə alıram. Şeirlər sanki bir şəxsiyyət olub səndən sual edir, sən bu gün nə etdin? Elə bil, onların həyatını yaşayırsan. Acılı, ağrılı, şirin, romantik dəqiqələr. Sözlər canlı varlıq kimi durur göz önündə. Qəlb gözünü aç, -deyir! Sülhə səs ver!

Körpələri qoru, qocaları sev, həyatın necə gözəl olduğunu bir daha dindir. Canlandır onları! Onları yaşatmağa sövq et. Ədəbiyyatçı olmasam da, gec də olsa, şeir yazmağa başladım. Cavanlıqda yazdığım şeirləri yandırmışdım. Sevdiyim əmim oğlundan (oğlumun atası) küsmüşdüm deyə. O vaxtdan söz verdim ki, şeir yazmayacağam. Ancaq nəvəm Fateh Soltanın kiçik toyunda qərara gəldim ki, ona bir şeir həsr edim. Şeir müvəffəqiyyətli alındı. Məclisin çox xoşuna gəldiyinə görə. Yazmağı davam etdim. Hər zaman narahat idim, nəsə çatmırdı. Sən demə, şeir yazmalıymışam. İndi özümü çox xoşbəxt hiss edirəm. İlk şeirim "Bala baldan, nəvə candan şirindir" şeiridir. Allah sizlərə qismət etsin, doğrudan da, şirindir. Sizinlə görüşə gec gəldim. Mən hələ sözümü deməmişəm. Təəssüf edirəm ki, şeirə gec gəldim. Bəlkə də, tez gəlsəydim, xaruqələr yaradardım. Mənim də şedevrim olardı. Sevilə-sevilə oxunardı şah əsərim. Məndən oxucularım inciməsin. Bu kitablarımı gözəl-göyçək bal nəvələrimə ithaf edirəm. Zamanı gələndə kitabı vərəqləyib fəxrlə desinlər: -Bizim belə bir şairə nənəmiz olub. Gilə xanımı yadlarına salaraq qürur hissi ilə oxuyub, öz sevimli dostlarıyla paylaşsınlar. Şeirlərimi nəvəm Fateh Soltana, Məryəm xanıma, balaca Gilə xanıma və gələcəkdə doğulan Zöhrab son beşiyimə ithaf edirəm. Allah onları, onların dostlarını, valideynlərini və cəmi xalqımı

qorusun. Öpürəm hər kəsi. Ruhum sizinlədir, əziz övladlarım. Sizləri indi də, sonra da sevəcəyəm. “Mənim acı həyatım” kitabı ürəyinizcə olacaq!

***4 iyun 2014-cü il***

# GÖZÜNÜN BİRİ GÖY, BİRİSİ YAŞIL

İnsanlıq söyləyir,
Haray, dad deyir.
İnsana ehtiram
Axtarmayır o.

Düzlükdən danışır
Ağız dolusu,
Halallıq nə demək,
Heç bilməyir o.

Gözünün biri göy,
Birisi yaşıl,
Nəzər nöqtəsini
Heç seçməyir o.

Ürəyi kobuddur,
Sanki daşdandır.
Puldan başqa heç nə
Düşünməyir o.

Qəlbinə tez dəyir,
Çünki kobuddur.
Qəlbindən qiymətli
Pulu sayır o.

Dili dəyişikdi
Gözləri kimi,
Qəlbində tək mənəmlik
Devizi kimi.

***4 iyun 2014-cü il***

# TALE AYIRDI BİZİ

Tale ayırdı bizi,
Kor qoydu bəxtimizi.
Qarğa-quzğun daraşdı,
Məhv etdi sevgimizi.

Bəxtimə, yığvalıma,
Nifrətim var gərdişə.
Neçə payız, neçə qış,
İllər soyutdu bizi.

Dünyadan baş götürüm
Hara gedim, bilmədim.
Sallanmışam kəndirdən
Qəndirdəyəm, qəndirdə.

Gücüm yetdikcə qaçım,
Qurtarım bu əzabdan.
Köçür ömür qatarım,
İllərimi ötürüm.

Qismətimiz yox imiş,
Dedik, üstündən keçdik.
Qismətim bu, neyləyim,
Başqa qismət yox imiş.

Nə sən irəli gəldin,
Nə mən ilk addım atdım.
Beləcə biz əriyib
Bir ovuc külə döndük.

***5 iyun 2014-cü il***

# ELLƏR GÖZƏLİ

Sən ellər gözəli,
Sevgili qadın,
Sənin hüsnü rəğbətin
Ellər dilində.

Hüsnünü bəzəyir
Şeir, sənətim.
Qəlbimi oxşayır
Hüsnü camalın.

Sənin baxışların
Yaqut, mirvari.
Gözlərin gözəldir,
Məst edir məni.

Həyəcanım sarır
Bütün canımı.
Kaş ki, vüsalına,
Ləbinə yetsəm.

Gözəllik ilahəsi
Sənə tay deyil,
Sən özün gözəlsən
Gözəllər içrə.

Gözəlliyin misilsiz,
Tacın özündən.
Görənlər söyləyir,
Bir də görüm mən.

Təbiət yetirib
Bu gözəlliyi.
Bir göyçək ananın
Göyçək quzusu.

Durub dolanaram
Başına sənin.
Anana da qurban,
Sənə də qurban.

İlahi gözəllik
Verilib sənə,
Allahına da qurban,
Sənə də qurban.

***5 iyun 2014-cü il***

# ELLƏR ELÇİSİ

***Mehriban xanıma ithaf***

Sən ellər yurdunun
Ellər gözəli.
Qəlbimin həmdəmi,
Nazlı nigarı.

El qızı, gözümdə
Böyük hünərin.
Yurdumun ən əziz,
Gözəl dilbəri.

Geniş vüsət alır
Sənin qərarın.
Sevinir evdə də
Övladın, yarın.

Alqışlar söyləyir
Doğmalar sənə.
Təriflər söyləyir
Sənin şəninə.

Fərəhli haldır ki,
Uğurların var.
Hər eldə, obada
İmzaların var.

Əsaslı sözün var
Öz məntiqin var.
Vətənə qayğın var,
Elə sayğın var.

Bu həyatın mənası
Sənin gözəl gözündə.
Bəxş olunubdur bizə
Sənin hünərin, adın.

Ruzigar əssə də sərt,
Gəlib ötüb keçəcək.
Nə qəmə, nə cəfaya
Təslim deyilsən heç vaxt.

Mehri-məhəbbət deyim
Sevib-sevdiyin işə.
Sən vətənə bağlısan,
Hər kəsə bəyan edim.

***8 iyun 2014-cü il***

# ÜRƏK DAİM YANAR

*Q.Cavidə ithaf*

Neyləyim bu ürəyə,
Daim vurur durmadan.
Közərib alovlanır,
Daim məşəltək yanır.

Nə gözəldir, sevimli,
Əziz insana xidmət.
Onun hər müşkülünə
Öz müşküləntək yetmək.

Aramla söhbət edib
Diqqəti ona çəkmək,
Üzülməsin- deyərək,
Dərdini tez dağıtmaq.

Yan onunçün, hiss etsin,
Sənə sırtın söykəsin.
Alovlu ürəyini
O da duysun, eşitsin.

Qəlbin odlu, alovlu,
Hər zaman sevib-sevil.
Hər zaman insanların
Ürəyinə diqqət et.

***8 iyun 2014-cü il***

# HƏQİQƏT CARÇISI

***Professor Paşa Qəlbinura ithaf edirəm***

Həqiqətin carçısı
Önündə oldum.
Nadanlıq, zalımlıqla
Doğrulmadım mən.

Hər zaman, hər yerdə
Birinci oldum.
Zalıma "sus",- dedim,
Haqqı tanıdım.

Usanmaq bilmədən
Çarpışdım hər an.
Haqqı yazım deyə,
Silahım qələm.

Zalimin, yaltağın
Hiyləsin görüb,
Tədbirin tökərək
Oyununu pozdum.

Sindirə bilmədim
Hər cür yalanı.
Qəbul eyləmədim
Haqqa susanı.

Nadanın əlindən
Qamçı alanı,
Mən də qamçı çaldım,
Şeirimi yazdım.

Əhsən o kəsə ki,
Ömrü doğrudur.
Həyatı tərtəmiz
Qəlbi nurludur.

“Alqışlar”, -deyirəm
Bir ömür boyu
İnsana hörmətə,
Saf məhəbbətə.

***15 iyun 2014-cü il***

# ELŞƏN, ÜRƏYİM FƏRƏHLƏNİR

***Qardaşım oğlu Elşənin toyuna hədiyyə***

Qardaşoğlu toy edir,
Ürəyim fərəhlənir.
Yeni həyat qurub o,
Həyatı təzələnir.

Sevinir, şadlanır çox,
Hər kəsi qucaqlayır.
Hər kəs üzündən öpür,
"Xoşbəxt olasan", -deyir.

Elşən uçur sevincdən,
Arzusuna qovuşur.
Həyat kitabçasının
Səhifəsin vərəqləyir.

Gözəl sözlər oxuyur,
Xoş kəlmələr eşidir.
Neçə belə arzuyla
Ümmanlara yetişir.

Xalaları, bibisi
Deyir, dua söyləyir.
Bacı-qardaşı gülüb,
Sevinib rəqs eyləyir.

Ana qayınana olub,
Ata olub qayınata.
Mehriban, əziz olub
Həm qayınana, qayınata.

“Xoş gəldin”, -söyləyirlər,
Deyir məclis əhlinə:
-Yeyin, için, kef edin
Hər zaman xoşbəxt olun.

***15 iyun 2014-cü il***

# NƏNƏNİN, BABANIN BALASI

***Nəvələrimə ithaf***

Yaz bizə qonaq gələcək
Yaz havası xoş ətriylə,
Gözəl-göyçək tumurcuğu,
Qaranquşla, səməniylə.

Ağaclar da çiçək açıb
Gülləri rövnəq verəcək.
Ovqatları xoş edəcək,
Şirin nübar bar verəcək.

Ülfətli, arzulu
Elin qızları
Xınalar əlində
Xalı görünür.

Bəxtiyar yurdumun
Bəxtəvər qızı.
Çox xoşbəxt görünür,
Qəşəng görünür.

Qanları qaynayır
Qızın, oğlanın,
Sevib-sevilməkçün
Yarını gəzir.

Toy-düyün düşünür
Ana-atalar,
Gəlin sorağında
Elçi daşında.

Nəvə-nəticə istəyir,
Düyün istəyir.
Oğlundan, gəlnindən
Bir pay istəyir.

Alıb qollarına
Əziz nəvəsin.
Nənənin, babanın
Balası desin.

***19 iyun 2014-cü il***

# ALMANIN YARISI

Sən kimsən axı,
Nə istəyirsən?
Məni özünə
Tay istəyirsən.

Bir özünə bax,
Bir düşün dərin.
Tərəziyə bax,
Bir çəkiyə bax.

Həyatda hər kəs
Tayını tapar.
Tapmasa əgər,
Günü ah-vayla keçər.

Hər kəsin dünyada
Bir yolu vardır.
Hər kəsin özünə
Tay-tuşu vardır.

Nədən israrla
Tərslik edirsən?
Hər şeyi çətin,
Qəliz seçirsən.

Havadan tutub
Sevib keçirsən.
Əlin boşdadır,
Anlamayırsan.

Həyat çətindir,
Anla sən bunu.
Həyat səninçün
Oyuncaq deyil.

Başa düşmürsən,
Sənin deyiləm...?
Mən azad insan,
Azad seçiməm.

Düzgün seçim et,
Öz yarını gəz.
Almanın yarısın
Başqa yerdə gəz.

***20 iyun 2014-cü il***

# SƏN QƏLBİNİ BAĞIŞLA

Qəlbini incitmişəm,
Qəzəblənib coşmusan.
Alovdan don geymisən,
Sevgidənmi dolmusan?

Bağışlaya bilmirsən,
Sil gözünün yaşını.
Özünü incidirsən,
Həm də məni üzürsən.

Çalış, bağışlayasan,
Sənin böyük qəlbin var.
Düşüncə, təfəkkürün,
İnsana inamın var.

Allahım bağışlayır,
Öz quluna inanır.
Bağışla, böyüklük et,
Sən sevgilim, bağışla.

Dur yanımda, bir gedək
Bu həyat yollarında.
Bir amala, sevgiyə
Bir eşqə sahib olaq.

***20 iyun 2014-cü il***

# ULDUZLU GECƏLƏR

Ulduzlu gecələr,
Romantik görüş
Sevənlər qovuşur
Aylı gecədə.

Azad duyğuyları,
Aşiq sevdası,
Arzular, istəklər
Yan-yana durub.

Gecələr sayrışır
Şair qəlbitək.
Şirin söhbətlərlə
Bal, şəkər olur.

Gecələr tən yarı
Bilmir aşiqlər.
Kəlmələr dilində
Dolur, boşalır.

Həyat mənalıdır,
Həyat gözəldir.
Yaşam coşğusuyla
Diqqət çəkirlər.

Hər kəs alqış deyir
Sevən gənclərə,
Sevən ürəklərə,
Vuran qəlblərə.

***20 iyun  2014-cü il***

# GECƏ OLUR TƏN YARI

***Q.Cavidə ithaf edirəm***

Gecə olur tən yarı,
Mən oyağam, yatmıram.
Unutmuram mən səni,
Eşq oduna yanıram.

Şirin xəyal qururam,
Səninlə bir gedirəm.
Qumlu sahillərdəyəm,
Birgə addımlayıram.

Dəniz ləpələndikcə
Öpür ayaqlarımı.
Qəlbimə sevgi dolur,
Qəlbimə su çilənir.

Sanki yuxulardayam,
Düşünürəm mən hələ.
Kaş ki, yuxum çin ola,
Gözəl səhər açıla.

Tələsirəm görüşə,
Coşub-çağlayıram mən.
Xoş duyğular qəlbimə,
Eşqimə hakim olur.

Səsin gəlir uzaqdan,
Sevgilim, mən burdayam.
Sənin səsin qəlbimə,
Gözlərimə nur verir.

***20 iyun 2014-cü il***

# QƏLƏMİM İLƏ

***Nəvələrimə ithaf***

Həyata gəlmişəm,
Həyatı sevəm.
Sevib-sevilməyi
Duyam, hiss edəm.

Ürəyimdə vardır
Neçə misralar.
Onları yazacam
Ömrüm var qədər.

Unutmasın məni
Ellər, obalar.
Yaşasın şairə
Qələmi ilə.

Odda yanmaz,
Suda batmaz, -desinlər.
Sözüm kəsər,
Kəlməm iti, -desinlər.

Dostlarım, sirdaşım
Can yoldaşlarım,
Ömrümün bəzəyi
Öz övladlarım.

Sizləri sevirəm,
Əziz doğmalar,
Əziz nəvələrim,
Körpə balalar.

***21 iyun 2014-cü il***

## XOŞBƏXTLİK ƏLİNDƏDİR

***Q.Cavid bəyə ithaf edirəm***

Ahu-nalən göylərdə
Qədərinə küsmüsən.
Dağlar, daşlar dil açır
Sənin ahu-nalından.

Fəryad edir, susmursan,
Daxilində püskürür.
Yığılıb vulkan kimi
Partlayıb yanğın verir.

Dünyaya üsyan edir,
Gəldiyinə peşmansan.
“Nədən doğuldum?”, -deyib
Qismətinə küskünsən.

Zəhər olsa, bal deyim,
İçim, keçim dünyadan.
Allahım günah bilib,
Səbir deyib hər bir an.

Nemət verib, var verib,
Gözəl, sağlam can verib.
Düşünməyə bir beyin,
Sevməyə ürək verib.

Həmdəmin yoxsa əgər,
Ümid bağla Allaha.
Əzəldən sonunadək
Duaların bol eylə.

Ülfət bağla, söhbət et,
Ürəyini aç, söylə.
Ürək nur ilə dolu,
Allaha gedən yoldu.

***22 iyun 2014-cü il***

# CANIN QURBAN EDƏSƏN

***Q.Cavid bəyə ithaf edirəm***

Sevgiyə yoxdur çarə,
Əgər qəlbin qanatsa.
Məlhəm yarın əlində,
Öz əliylə sarısa.

Bəlkə, çarə buluna,
Söylə dərdini yara.
Eşqin dola qəlbinə
Röyaların çin ola.

Piyaləylə içirt sən
Qurtum-qurtum eşqindən.
Çərxi-fələk dolansın,
Aşiq olsun sevdandan.

Sevgi salsın qəlbinə
Eşqin röyası ilə.
Eşq badəsi əlində,
İçirtsən, meyxoş eylə.

Durub dolansın yarın
Başına pərvanətək.
Sən də qadasın alıb
Öpəsən üz-gözündən.

Ruhum təslim eyləsin
Odlu öpüşlərindən.
Sarılasan sübhə qədər,
Canın qurban eyləsin.

***22 iyun 2014-cü il***

# UCA DURUN HƏR ZAMAN

***Hörmətli Prezidentimiz cənab İlham Əliyevə ithaf***

Söhbət sizinlə xoşdur,
Dünyanız rəngarəngdir.
Hər sözdə, hər kəlmədə
Ruhunuz tərtəmizdir.

Düşünürsüz dərindən,
Gözəl sözlər seçəsiz.
Hər kəsin könlün alır,
Hər kəsi dost bilirsiz.

İnsanlıq çox ucadır
Sizin amalınızda.
Həyat daim çağlayır
Təmiz ürəyinizdə.

Sevir sizi insanlar,
Tanıyan, bilən hər kəs.
Elin duası ilə
Yetmisiz zəngin ada.

İnsanlığın zirvəsi
Əsl insan adıdır.
Sadəlikdən doğulan
Ən uca, yüksək addır.

Uca durun hər zaman,
Zirvələr sizin olsun.
Həyatınız günəştək
İsti, işıqlı olsun.

Özünüz qazanmısız
Hörməti, məhəbbəti.
Müvəffəq olmusunuz
İşıqlı sabahlara.

Qarşınızda fikriniz,
Məqsədiniz düz olub.
İstəyinə yetməkçün
Zəfəriniz çox olub.

***23 iyun 2014-cü il***

## MƏHƏBBƏT ƏBƏDİ

***Q.Cavid bəyə ithaf***

Həsrətim bitəcək
Sənin dizində.
Vüsala yetəcəm
Böyük eşqinlə.

Alovlu öpüşlər,
Şirin busələr,
Bəyaz gecələrdə,
Coşğun hisslərdə!...

Bütün zamanlarda
Həyat gözəldir.
Məhəbbət əbədi,
Dünya əzəldir.

Dilimdə bir sözüm var,
Deyim, necə söyləyim.
Dilimin ucundadır,
Tut, onu qaçırmayım.

Sevirəm səni, yarım,
Qəlbim, ruhum səninlə.
Hər zaman yanımda ol,
Mənim silahdaşım ol!

Qəlbim səninlə vurur,
Nəbzim səninlə atır.
Hər iki dünyamdasan,
Gözüm səni axtarır.

***24 iyun 2014-cü il***

# FATEHİM, GİLƏM, MƏRYƏMİM MƏNİM

***Şirin nəvələrimə ithaf***

Ayım, ulduzum,
Günəşim mənim.
Ömrümə dolan
Sevincim mənim.

Mənim nəvəmdir
3-lük Soltanım.
Fatehim, Giləm,
Məryəmim mənim.

Oğlumun balaları
Mənim şirin balamdır.
3 yanan ulduzumdur
Mən də günəş şöləsi.

İsidirəm, isinsin
İsti nəfəsim ilə.
Əlimin hərarəti
Hər zaman üzərində.

Sevinci sevincimdir,
Kədəri üzür məni.
Arzusu böyüdükcə
Ürəyim dağa dönür.

Dilinin zümzüməsi
Qəlbimin öz səsidir.
Xəyalları çox geniş
Gələcəyin səsidir.

Ömrümə verilən pay,
Sizdən doymaq olmayır.
Qurban verim ömrümü,
Mən sizə qurban olum.

***28 iyun 2014-cü il***

# HƏKİMLƏR

***Əmim oğlu həkim Camala ithaf edirəm***

Həkimlərin hünəri
Dillərdə dastan olub.
Göstərdiyi qayğılar
Hər kəsə məlhəm olub.

Acı, şirin dərmanlar
Hər kəsə şəfa verib.
İncə, şirin kəlmələr
Bütün dərdləri çözür.

Qayğı dolu baxışlar,
Gülər üzlü nəvaziş,
Kövrək səsli xəstələr
Cürətlənir, sevinir.

Yağış suyu çilənir
Xoş rəftardan, söhbətdən.
1001 dərdin dərmanı
Ülvi hisslər əzəldən.

Doğma, yaxın insandır,
Həkimlər, həm bacılar.
Başımızın tacıdır,
Hipokratdan qalıbdır.

Xəstəsini çox sevir,
Qayğıyla bəsləyirlər.
Yatağında xəstənin
Keşiyində dururlar.

***29 iyun 2014-cü il***

## QIZIL BALIQ

***Q.Cavid bəyə ithaf edirəm***

Deyim, sənə məlum olsun
Həyatım sənə bağlıdır.
Kəmənd atdım, səni tutam,
Biləyimə dolanıbdır.

Sənə doğru gedən yollar,
Ürəyim sənə bağlıdır.
Başqasına açar yoxdur,
Bağlı qıfıl paslanıbdır.

Çətin, bir də kimsə aça,
Açarı dəryalardadır.
Balıqlara yem olubdur,
İzi, sorağı itibdir.

Qəlbimi sənə vermişəm,
Qoy, qalsın əbədi səndə.
Yaşasam, mən sənin olum,
Ölsəm əgər, bəlkə, onda.

Cənnətində yer ver mənə,
Sevilərək sevim mən də.
Balıq olum dəryalarda,
Qismətinə düşüm torda.

Qızıl balıq şanslı demək,
Qismətin, ruzun olaydım.
Xəyallarda gəzək qoşa,
Arzulara yetişəydik.

***29 iyun 2014-cü il***

# GÖZƏL QIZLAR DÜNYADA

Hərənin bir siması,
Hər kəs fərqli doğulub.
Qaşı, gözü, dırnağı
Allahdan bəxş olunub.

Xoşbəxtliyi çarpışıb
Özün gərək qurasan.
Yaşamını, bəxtini
Özün seçib sevəsən.

Gözəl qızlar dünyada,
Bağda güllər içində.
İçindən bir dənəsin
Seçib, tapıb dərəsən.

Gözəl ətri saçında
Müşkü-ənbər qoxusu.
İncə belli gözəllər
Nazında, avazında.

Nəğmələri yayılır
Çəmənlərə, düzlərə.
Ərə getmək vaxtıdır,
Elçilər durub gələ.

İgid boylu oğlanlar
Düzülüblər boy-boya.
Hərə öz yarın seçir,
Haray salır ellərə.

Elin adəti ilə
Düyünlər payızdadır.
Sevib-sevilən qızlar
Gəlin gedir, yoldadır.

Yarına qovuşacaq,
Qəlbi quştək çırpınır.
Ancaq ata yurdundan
Ağlayaraq ayrılır.

***30 iyun 2014-cü il***

# SEVGİ, MƏHƏBBƏT OLSUN!

***Q.Cavid bəyə ithaf edirəm***

Həyat böyük pəncərə,
Hər ötən baxıb keçir.
Hərə bir cür dünyadan
Öz payını götürür.

Məzmunu açıb deyim,
Sözün qisasın deyim.
Həyatın çətinindən,
Üzülməyimdən deyim.

İstəyirəm, dünyada
İstəyimə qovuşam.
İstəyirəm, insantək
Xoşbəxtliyi paylaşam.

İnsanlar arzu dolu,
Sabaha ümidlədir.
Xəyalından keçənlər
İnsanın istəyidir.

Bir ovuc səadətçün
Dünyalardan keçərlər.
Məhəbbət çox güclüdür,
Dərk edənlər bilərlər.

Sevib-sevmək gözəldir,
Hər kəs sevmək istəyir.
Sevgini qazanmaqçün
Ürəyə yol istəyir.

Sevgi satılıq deyildir,
Para ilə alınmaz.
Nə şahın xəzinəsi,
Nə dünya varındadır.

Sevgi böyük qüvvədir
Sevənin gözyaşıyla,
Körpə, çağa səsinin
Titrəyən avazıyla.

Bu müqəddəs duyğular
Hər kəsə qismət olsun.
Arzum budur, dünyada
Sevgi-məhəbbət olsun.

***1 iyul 2014-cü il***

# ACI HƏYATIM

***Oğlumun atasına ithaf edirəm***

Mən görən günləri
Heç kəs görməsin,
Mən çəkən əzabı
Kimsə çəkməsin.

Acı həyat kitabımı
Vərəqləyim mən.
Dərdimi söyləyim,
Siz qulaq verin.

19 yaşındaydım,
Gözəl, qəşəng məğrurdum.
Heç kəsi bəyənmirdim,
Ancaq əmim oğlunu.

Balaca bir qızcığaz,
Həyatsevər, mötəbər.
Həyatı gözəl görən,
Xəyallarla yaşayan.

Sevirdim dəli kimi,
Şeirlər bəsləyirdim.
Sevgimdən qida alıb
Röyalarda uçurdum.

Şeirlərim onunçün
Qalaq-qalaq yazıldı.
Şeirlərim onunla
Yandırıldı, kül oldu.

İndi yazmaq çətindir,
Onunla birgə gedib.
Nə sevgim, nə nifrətim,
Heç birisi qalmayıb.

Mənə verdiyi sözlər
Yalandan don geyinmiş,
Mənə olan nifrəti
Sevgisindən çox imiş.

Dedi, xoşbəxt edəcəm,
Mən sənə söz verirəm.
Səni göylərdə tutub
Ulduzları verəcəm.

Kişi təki söz verib
Sözünü doğrultmadı.
Ayaq altına atdı,
Üstəlik tapdaladı.

İçki düşkünü oldu,
Gecələr gec gəlirdi.
Yaxamdan bərk yapışıb
Baş-gözümü əzirdi.

Üst-başımı yolaraq
Gözümü qaraldırdı.
Bəhanə tapmayınca
Tapdayıb buraxırdı.

Mən işləyib gətirir,
O isə yeyib-yatırdı.
Gec gəldin, az gətirdin,
Doyunca danlayırdı.

Günlərimi sayırdım,
Ölmək arzulayırdım.
Allahım sevir məni,
Ölümlə çarpışırdım.

Canımdan çox bezmişdim,
İntihara qatlaşdım.
Kəfəni yırtdım, çıxdım,
Qismətimlə barışdım.

Bəxtim qara gəlmişdi,
Heç şansım da yox idi.
Atama yolum bağlı,
Ərim də vicdansızdı.

Nə oğula göz qoyur,
Sevə-sevə oxşaya.
Nə halın xəbər alır,
Başını tumarlayır.

Sevgisiz, qəlbsiz insan
Nə qədər zalım, qəddar.
Heç məhəbbət görməmiş,
Sanki o bir canidir.

Neçə illər yaşadım,
Həyatı dar eylədi.
Anadan əmdiyim süd
Axıb burnumdan gəldi.

Onunla keçən günlər
Mənə əzab yaşatdı.
Doğulduğum günü mən
Peşmanlıqla yaşadım.

Nə qədər çalışsam da,
Doğru yola gəlmədi.
Bir qadıntək mən onu
Cilovlaya bilmədim.

Pislə bacarmaq olmur,
Heç kəs bacarmaz bunu.
Pislikçün doğulub o,
Ruhu yox, ruhsuzdur o.

Gəncliyimə çox heyif,
Hədər getdi gəncliyim.
Qiymətimi bilmədim,
Düzgün zərgər seçmədim.

Allaha tapşırıram,
Bildiyitək eyləsin.
Qisasımı qoymasın,
Damla-damla çıxartsın.

İxtisara salmışam
Öz həyat tarixçəmi.
Kitablar dolar ondan,
Bu cür qəmli həyatdan.

Yazmamışam çoxunu,
Qələmə almaq olmur.
İnsanlığım yol vermir,
Keçənə güzəşt deyir.

Allah versin cəzasın!
Söyləsin: axı, nədən?
Özünə sual edib
"Günahım nədir?" -desin.

Cavabın tapmayınca
Çabalasın balıqtək.
Havası çatışmasın,
Qəlbi, ruhu darıxsın.

Yuxusu ərşə çıxsın,
Həyat dar olsun ona.
Düşündükcə düşünsün,
İnsanlığı anlasın.

Anlasın ki, yaxşılıq
Hər şeydən uca durur.
Anlasın ki, insanlar
Xoşbəxtlikçün yaranır.

Müqəddəsdir ailən,
Oğlun, uşağın sənin.
Qoruyub sevməlisən,
Xoş sözlər deməlisən.

***1 iyul 2014-cü il***

## KÖRPƏ SƏSİ

***Nəvələrimə ithaf edirəm***

Dünyaya körpə gəlir,
Şənlik, sevinc gətirir.
Həyata yeni nəfəs,
Xoş mübarək gətirir.

İnsan oğlu beşikdə
Böyüyübdür əzəldən.
İnsanlıq əbədidir,
İnsanlığı qoruyur.

Mübarəkdir gəlişin,
Xoş gəldin bu dünyaya.
Dünyamız şadlıq edir
Sən gəlincə dünyaya.

Gülüşün, səsin gözəl,
Min bir dərdin dərmanı.
Sevinc saçır hər yana,
Cümlə Azərbaycana.

***3 iyun 2014-cü il***

## QADİR OLAN ALLAH

***Oğlum Cavidə ithaf edirəm***

Günəş qədər yolun,
Mədəniyyətin var sənin.
Göylərə ucaldıqca
Ay-ulduzun var sənin.

Gözlərin hekayəti
Suallarla yaranmış.
Onlar nəyi soruşur,
Nədən cavab istəyir.

Səbrim getməsin deyə,
Səbrlə gözləyirəm.
Gözlərin nə söyləyir,
Sehrini öyrənirəm.

Qəddim bükülməsin heç,
Zamanla bir yeriyim.
Alın yazı yazılıb,
Zamana küsməyim heç.

Yaradan da bir Allah,
Alan da bir Allahdır.
Əhv edib bağışlayan,
Həyat verən də odur.

Allaha şükür edək,
Tövbə edək, əyilək.
Qarşısında səcdədə
Namaza duraq hər an.

Əl açaq, dua edək,
Arzumuzu diləyək.
Sevək, sevdirək onu,
Qadir olan Allahı.

***10 iyul 2014-cü il***

# RUS GÖZƏLİ

***Alinaya ithaf edirəm***

Rus gözəli sarışın,
Gözləri yaşıl, qəşəng.
Ağbəniz, gülərüzdü
Şirin dilli dilavər.

Dili ağzında durmur,
Dilotu yeyib sanki.
Sözləri üyüdərək
Dəyirmandan keçirir.

Emosional danışır,
Ehtiraslı görünür.
Hapdan-gopdan söyləyir,
Hər kəs onu dinləyir.

Gəzib-dincəlib durmur,
Qəmzəlidir yerişi.
Bütün günü işində
Həyatla yarışır o.

Həyatsevər, mehriban,
Şən üzlü, göyçək xanım.
Hər kəsi ram edibdir,
Saqqızın oğurlayıbdır.

***10 iyul 2014-cü il***

# ALİMİN QIZI FƏRQANƏ XANIM

***Alim bəyə və onun möhtəşəm qızı***
***Fərqanə xanıma ithaf edirəm***

Alqışlar söyləyirlər
Böyük ustadımıza.
Onun Fərqanə qızı
Davamçı novatora.

Təsnif, cahargah susmur,
Yanıqlı muğam deyir.
Ustad fəxrlə baxıb
Ona əhsən söyləyir.

Ustadımız Alimin
Dünyası başqa dünya.
Səsi Allah vergisi,
Yerlə, göylə təmasda.

Qızı Fərqanə xanım
Heç geridə qalmayır.
Yenilikçi nəvadır,
Yiyələnmiş sənətə.

Cahargahı bəzəyib
Öz gözəl avazıyla.
Milli nəfəs veribdir
İrandan gələn paya.

Ustadının eşqinə
Nəvanı yaradıbdır.
Bu çətin, məsul işin
Öhdəsindən gəlibdir.

Oxuyur gur səsiylə,
Ürək yanğısı ilə.
Sellər coşub-çağlayır,
Dağlar lərzəyə gəlir.

Bu cür ustad sənətkarı
Alqışlayır xalqımız.
Fərqanə cahargaha
Yeni nəfəs qatıbdır.

Elimizə yenilik,
Muğama nəva qatdın.
Gördün? Təki istə sən!
Sən istədin, bacardın.

Ustadım, əziz atam
Əl çaldı, alqış etdi.
Mənimlə qürur duydu,
Ruhlandırdı, şad etdi.

Minnətdaram ustada
Məni anladı, gördü...
Musiqisi qəlbimdə
Bir ömür bağışladı.

Qürur duyuram, bəli,
Böyük məktəb keçmişəm.
Alim kimi atamdan,
Ustaddan dərs almışam.

Alimin ocağıdır
Bu ocaq ustadımın.
Ocaq müqəddəs addır,
Mən özüm bu ocaqdan.

İpin ucundan tutub
İlmələri çözürəm.
Zəngurənin səsindən
Çeşnisin çıxarıram.

Musiqi üsyan edir,
Dil açır, qəlbdən deyir.
Aman deyir əlindən,
Yar, sənin dad əlindən.

Yusifin gücündən, sədaqətindən,
Züleyxanın eşqindən, məhəbbətindən.
Yusifin həsrətindən saralıb-solur,
“Hardasan sevgilim, soltanım”, -deyir.

Muğamın özünün də
Həsrətli səsi vardır.
Zülfünə bənd oldun, Seyid,
Şikayət etmə, -deyir.
Cahargahı nəvayla

Kəlmələr gözəl deyir.
Özün bəxti-çarəsən
Həsrətin böyük deyir.

Muğamın nəfəsindən
Özü də təsirlənib.
Mənəvi ruhu safdır,
Həyata yeni gəlib.

Cahargahı yaşadır
Fərqanə nəvasında.
İncəsənət, mədəniyyət
Səsində, vüqarında.

Əsrlərin sərvəti
Ata-babadan gəlir.
Bu böyük bir vergidir,
Uca Tanrıdan gəlir.

Xeyir-dua veririk
Atasına, qızına.
Xalqın nadir incisi
Hər iki böyük ada.

Təmizliyin, saflığın
Bu səsdə birləşibdir.
Mirvaritək düzülən
Dağlardan süzülübdür.

***10 iyul 2014-cü il***

# AD GÜNÜM MƏNİM

***Özümə ithaf edirəm***

11 ayın həsrəti-
Mənim ad günüm gəlir.
Ad günü mübarək gün,
Hər il eyni vaxt gəlir.

Haqlı səbəbkar günü
Mübarəkdir, -deyirlər.
11 ay ayrı düşdük,
Gəl yenidən görüşək.

Ötüb keçir illərim,
Dünya mənə dar olur.
Yaşıma bir yaş gəlir,
Ad günüm kədər olur.

Üz döndərib gedirəm
Həsrət çəkdiyim günə.
Ad günümü qeyd etmirəm,
Küsmüşəm, mən dinmirəm.

Dünyada əzizlərim
Bir-bir köçüb-gediblər.
Kövrəlib üzülmüşəm,
Sap kimi qırılmışam.

Gəncliyim ötüb gedir,
Ömür yolum azalıb.
Xatirələr uzaqda,
Geri dönmək yox artıq.

Gözlərimi yumunca
Həyat, zaman tez keçir.
Gözlərimi açınca
Kipriyim oxtək batır.

Saxlamaq mümkün deyil,
Ötüb keçir zamanım.
Gedir ömür yolunda
Tənha sürət qatarı.

Gəncliyim ötdü keçdi,
İdealım olmadı.
Niyyət böyük nisbətdir,
Nəticə ağır oldu.

Sən düzgün yol seçirsən,
Bəzən əksinə olur.
Niyyətin xoşməramlı,
İşlər tərsinə olur.

Dincəlmirəm, durmuram,
Aşıb keçmişəm əsrə.
Hər şey gözüm önündə,
Əlli çatıbdır yüzə.
Bəlkə, bir gün gələcək,

Ömür geri dönəcək.
Ürəyim səksəkədə,
Gözlərim yol çəkəcək.

Həyat oyun oynadı,
Gəncliyi çaldı getdi.
Yolda qoydu gözümü,
İlləri aldı getdi.

Aşiq oldum həyata,
Pünhan saxladım, gizlin.
Dərdimi söyləmədim,
Biçarətək dolandım.

Tərtəmiz baldır həyat,
Dadı şirin, ətirli.
Azadlıq hurriyyətdir,
Bülbül oxşayır gülü.

Yaş ötsə də ömürdən,
Ruhun dili eşqdir.
Həyatın səhifəsindən,
Ömürdən kərpic düşür.

Ruhum gəzir cahanda,
Öz yarımı tapmıram.
Mənim dünyam böyükdür,
Bu dünyaya sığmıram!

***14 iyul 2014-cü il***

# FATEH MƏKTƏBƏ GEDİR

Sentyabr ayıdır,
Məktəb vaxtı çatıbdır.
Fateh Soltan böyüyüb,
Məktəbə yollanıbdır.

Dərslərindən beş alır,
Nümunəvi şagirddir.
Müəllimi çox sevir,
Yeni dostlar qazanır.

Fateh sevimlidir çox,
Onu hər kəs çox sevir.
Oğlanlar, qızlar onun
Söhbətini dinləyir.

Çox şirin, sevimlidir,
Heç kəsi incitməyir.
Heç kəsdən inciməyib
Hər kəslə çörək kəsir.

Evə dönüb gələndə
Dərslərini oxuyur.
Sonra boş vaxtlarında
Bacısıyla oynayır.

***15 iyul 2014-cü il***

# QOÇAQ CIRTDAN

Uşaqlar yığışıblar,
Teatra yollanırlar.
Aktyorlar tamaşa
Göstərəcək səhnədə.

Cırtdan qoçaqlığını
Nümayiş etdirəcək.
Dostlarla birləşəcək,
Özünü sevdirəcək.

Suya göndərib divi
Onu bərk aldadacaq.
Dostlarını götürüb
Ordan uzaqlaşacaq.

Mərhəmətli cırtdanı
Hər kəs sevir, tanıyır.
Onun qoçaqlığından
Ellər nağıl danışır.

***15 iyul 2014-cü il***

# KƏPƏNƏK

Al-əlvan rəngarəngdir
Bağçadakı kəpənək.
Uşaqlarla bir qaçır,
Əllərindən uçurlar.

Çox zərifdir kəpənək,
Qəşəng xalları vardır.
Ürəkləri oxşayır,
Hər kəsi valeh edir.

Qonub uçur çiçəyə,
Güllərlə birgə əsir.
Kəpənəklər hər yerdə
Çəmənlərdə gəzişir.

*15 iyul 2014-cü il*

# YAĞIŞ YAĞIR

Yağış yağır küçəyə,
Damlalar damdan düşür.
Qoçaq uşaqlar qaçır,
Hay salaraq sürüşür.

Onlara çox xoş gəlir
Yağış altda gəzişmək.
Çünki yaz yağışıdır,
Yurdumuza yaz gəlir.

Əllərini uzadıb
Yağış suyu yığırlar.
Sanki yağışdan tutub
Göylərə uçacaqlar.

Yağ, ey yağış, deyirlər,
Bolluq, bərəkət gətir.
Vətənimə nur gətir,
İşıqlı səhər gətir.

***15 iyul 2014-cü il***

## SON ZƏNG

Gözəl rəqs havasıdır,
Uşaqlar rəqs eyləyir.
Əllərini qaldırıb
Doyunca yallı gedir.

Hər kəs şənliyə gəlib
Son zəngin sədasına.
Hər kəsin qəlbi çarpır
Son zəngin vidasına.

Fəxr edirlər özləriylə,
Məktəbi bitiriblər.
Ali məktəb onların
Yollarını gözləyir.

Hər kəsin bir seçimi var,
Biri həkim olacaq,
Biri polis işçisi,
Biri müəllim olacaq.

***15 iyul 2014-cü il***

# AZƏRBAYCAN YURDUMUZ

Azərbaycan yurdumuz,
Bakı mərkəzimizdir.
Ulu öndər babamız,
Yurdumuz bizimkidir.

Nə qədər düşmən gəlsə,
Heç kəs bizlə bacarmaz.
Çünki igid atamız,
Qoçaq qardaşımız var.

Hər kəs əl-ələ verib
Yurdumuzu qoruyur.
Torpağımız bizimdir,
Düşmənə pay verilməz.

***15 iyul 2014-cü il***

## FATEH NƏVƏM

Mənim Fatehim nəvəm
Cizgi filmini sevir.
Kayu məşhur qəhrəman,
Rozi onun bacısıdır.

Hər ikisini çox sevir,
Sevimli qəhrəmanıdır.
Ona bənzəmək üçün
Hər şeyi Kayu alır.

Kayu çox tərbiyəli,
Hər şeyi düz anlayır.
Bacısını heç döymür,
Onu sevir, qoruyur.

***15 iyul 2014-cü il***

## 8 MARTDIR, ANACAN!

8 martdır, anacan,
Səninçün bəzənmişəm.
Əllərimdə gül-çiçək,
Səninçün gül seçmişəm.

İyi dağ ətirli,
Qoxusu cənnətdəndir.
Sənin ətrintək gözəl,
Qoxusu hər yandadır.

8 martın mübarək,
Sevinir qardaş, bacı.
Hamısı da gül ətirli,
Sənin qarşında durub.

Bayramın çox mübarək,
Deyir, bütün dünyamız.
Dünyamız şadlıq edir,
Qədir-qiymətin bilir.

***15 iyul 2014-cü il***

# FATEH BİLİK ÖYRƏNİR

Fatehin çantası
Kitab-dəftərdir.
Dərslərə yollanır,
Artıq səhərdir.

Axşamdan dərslərin
Oxuyub, öyrənibdir.
Məktəbə hazırlaşıb
Çox çalışqandır.

İdman paltarını alıb,
Bu gün idman dərsidir.
Çoxlu idman eyləyib
Enerji yığacaqdır.

Sonra yenidən dərsdə
Çox gözəl çalışacaq.
Müəllimə qulaq asıb
Elm öyrənəcək.

***15 iyul 2014-cü il***

# AHU GÖZLÜ NƏVƏM

Ceyran gözlü Məryəmim,
Hər kəs sənə vurulub.
Hər kəsin ürəyində
Şirin yuvan qurulub.

Körpə nəvəm, can nəvəm,
Mənim balaca nəvəm.
Çağalığın çox şirin,
Hər kəs yeyir, doymayır.

Qəlbim sənə bağlıdır,
Ürəyim vurur sənlə.
Sənin səadətindən
Qurulub səadətim.

Ağladın incə, kövrək,
Duyğulandım, sevindim.
Həyata yeni gəldin,
Gəldin, qəlbim sevindi.

***15 iyul 2014-cü il***

# UŞAQLAR

Qaçır dəcəl uşaqlar,
Qaçdı-tutdu oynayır.
Dərslərini oxuyur,
Asudədir, dincəlir.

Həyət uşaqla dolu,
Hər kəs söhbət eyləyir.
Heç kəsin qəmi yoxdur,
Deyir, gülür, şənlənir.

Dostlar yığışıb birgə,
Dostlarla görüşürlər.
Dərsləri hazırlayıb
Birgə həllin tapırlar.

***15 iyul 2014-cü il***

# MƏRYƏM ƏLAÇIDIR

Anası çox sevinir
Məryəmin hünərinə.
Çünki əla oxuyur,
Dərslərdən əlaçıdır.

Məktəbə nümunədir,
Məryəm xanım beş alır.
Uşaqlara köməkdir,
Onlarla yaxın olur.

Dostlara yardım edir,
Dərslərini öyrədir.
Müəlliminə köməkdir,
Uşaqlarla birgədir.

***16 iyul 2014-cü il***

# BAHAR GƏLDİ

Bahar gəldi elimə,
Ellər süfrə qurubdur.
Bişirir şəkərbura,
Qoğal, nabat düzübdür.

Uşaqlar papaq atır,
Tonqal üstə tullanır.
Nənələr çox sevinir,
Yumurtanı boyayır.

Aş qarası bişirir,
Anamız aşın süzür.
Meyvələr süfrələrə,
Sinilərə düzülür.

Qonaq-qara gedirlər
Bayramlaşırlar birgə.
Hər kəs sevinc içində
Qonaq-qaralı olur.

***16 iyul 2014-cü il***

# MƏRYƏM QIZIM

Yeni ayaq açmısan,
Yıxılırsan, durursan.
Sən ordan-burdan tutub,
İməkləyib qalxırsan.

Yorulmaq bilməyirsən,
Yeriyirsən, qaçırsan.
Ətəyimdən yapışıb
Boynuma dolanırsan.

Ay mənim dəcəl qızım,
Gözləri göyçək qızım,
Saçları çox qıvırcım,
Məryəmim, gözəl qızım.

***16 iyul 2014-cü il***

## 8 MART BAYRAMI

***Nəvələrimə ithaf***

8 martdır, anacan,
Sanki gül bayramıdır.
Hər tərəf gül ətirli,
Sevib qoxlayırıq biz.

Sən özün də çiçəksən,
Gözəl ətrin tükənməz.
Hər birimiz qoynunda
Körpə fidanlarıq biz.

Sevirik səni lap çox,
Möhtacıq şirin dilə,
Gözəl laylalarına,
Sənin nəvazişinə.

İllər ötüb keçsə də,
Biz yenə səninləyik.
Heç zaman ayrılmırıq,
Ahu balasıyıq biz.

***16 iyul 2014-cü il***

# MƏN LALƏYƏM

Lalə düzlərə çıxıb,
Çox gözəldir, kövrəkdir.
Qara bağrı qaradır,
Əzizlənmək istəyir.

Uşaqları səsləyir,
Həsrətlidir, durmayır.
Deyir, gəlin yanıma,
Məni dərin, aparın.

Oxşanmaqçün yarandım,
Çünki gözəl laləyəm.
Hər kəs sevir qoxumu,
Hər kəsə xoş gəlirəm.

Təbiət sevir məni,
Çox gözəl yaradıbdır.
Ləçəyimdən ətirlər,
Şirin dərman alınır.

***17 iyul 2014-cü il***

# OYUNÇUDUR MƏRYƏM

***Məryəm nəvəmə ithaf***

Topu atır uşaqlar,
Ardınca Məryəm qaçır.
Onlar çox mehribandır,
Birgə top oynadırlar.

Həyətə çıxıb baxır,
Dostlarını axtarır.
Onlar əl-ələ verib
“Beş şüşə” oynayırlar.

Şüşəni Məryəm atır,
Məharətlə oynayır.
Hər kəsi təəccüb edir,
Çox çevik tərpənir o.

Fateh onun qardaşı,
Heç geridə qalmayır.
O da çatır köməyə,
Bacısına haraya.

***17 iyul 2014-cü il***

# QIŞ GƏLİB

Buzu əzib uşaqlar
Sürüşkən düzəldiblər.
Xizək sürürmüş kimi
Taxtayla sürüşürlər.

Həyat dolu uşaqlar
Onlar deyib-gülürlər.
Qardan adam düzəldib
Ağız-burun qoyurlar.

Sevinirlər, qar yağıb,
Şaxtadan qorxmayırlar.
Çünki isti paltarın,
Əlcəyin geyiniblər.

Onlar çox cəsurdurlar
Şaxta-boran bilməyir.
Dağlarda xizək sürür,
Dərin nəfəs alırlar.

*17 iyul 2014-cü il*

## "GEDBIRT" PİŞİYİM MƏNİM

***Nəvəm Fateh Soltana ithaf edirəm***

Mənim gedbırt pişiyim,
Tüklərin yupyumşaqdır.
Əllərimi çəkdikcə
Əllərim qıdıqlanır.

Çox sevirəm mən səni,
Kayunun öz dostusan.
Corabını gətirib
Ona kömək edirsən.

Məktəbə tələsəndə
İmdadına yetirsən.
Ayaqqabı, çantanı
Tez ona çatdırırsan.

Sağ ol, yardımsevərsən,
Hər zaman yanımda ol.
Kayunun sevimli pişiyi,
Onun gedbırt dostu ol.

***17 iyuk 2014-cü il***

# MEHRİBAN DOSTLAR

***Nəvələrimə ithaf edirəm***

Fatehlə Məryəm xanım
Şirin dilli, baldılar.
Onlar bacı-qardaşdır,
Çox mehriban dostdurlar.

Sevirlər valideyni,
Çünki onlar əzizdir.
Onları hey qoruyur,
"Mənim balamsan", -deyir.

Gəzməyə yollanırlar,
Bulvarı gəzdirirlər.
Xəzərin qoynundakı
Göy suları görürlər.

Yelləncəkdə yellənib
Sonra gəzinti edirlər.
"Qaçdı-tutdu" oynayıb
Şənlənirlər, gülürlər.

***18 iyul 2014-cü il***

## MƏRYƏMİN AD GÜNÜDÜR

Yığılıbdır qonaqlar
Məryəmin ad günüdür.
Dostları əhatədə,
Uşaqlarla şənlənir.

Sevinci sığmır göyə,
Hər kəs hədiyyə verir.
Hər kəs üzündən öpüb
Ad gününü təbrik edir.

Nənəsi öpüb bərk-bərk
Deyir, əziz, gül qızım.
Əllərindən bərk tutub
Şənləndirir, güldürür.

Məryəm sevir nənəsin,
Doğma ata-anasın.
Öz əliylə bişirib
Sevimli şirniyyatın.

Məryəm yeyir tortunu
Ağzı-burnu tort olur.
Qonaqları güldürür,
Çox sevimli görünür.

***18 iyul 2014-cü il***

# ÇOBAN İTİ

Həyətdə çoban iti
Quzuları qoruyur.
Yamacda, dağda, düzdə
Canavarlar ulayır.

Çoban iti qorxmayır,
Canavarları qovur.
Quzuları qoruyur,
Otlaqlarda otarır.

Çobanın yaxın dostu,
Çox böyükköməkçisi.
Hər an hayına yetir,
Canavardan qoruyur.

***18 iyul 2014-cü il***

# MƏRƏYMİN CÜCƏSİ

***Məryəm nəvəmə həsr edirəm***

Toyuq-cücə həyətdə,
Məryəm qulluq eyləyir.
“Cücələrim” mahnısını
Cücələrçün oxuyur.

Cücələr cikkildəşir
Məryəmin mahnısından.
Sevinərək yetişib
Ətəyindən tuturlar.

Başlarını qaldırıb
Göyə dua edirlər.
Məryəmin ətrafında
Dövrə vurub dururlar.

Məryəm ətrafa baxır,
Yumurtanı axtarır.
Sarısını cücələri,
Ağını özü yeyir.

***18 iyul 2014-cü il***

# FATEH VƏ KÜLƏK

***Nəvəm Fateh Soltana ithaf***

Bayırda külək əsir,
Fateh Soltan bərk qorxur.
Küləyin uğultusu
Onu yatmağa qoymur.

Yuxu yatmayıbdır heç,
Hər kəsi oyadıbdır.
Küləkdən bərk qorxuram,
Deyib təlaş eyləyir.

Anasına sığınır,
Nə olar, məni qoru.
Nədən külək səs salır,
Bağırıb qorxuzdurur?

Anası qucaqlayıb
Deyir, qorxma, əzizim.
Bu küləyin səsidir,
Sənlə söhbət eyləyir.

***18 iyul 2014-cü il***

# ALMA

Alma almaya bənzər,
Yanaqları eynidir.
Sevib hər kəs seçirlər,
Çox ləzzətlə yeyirlər.

Deyirlər, çox gözəldir,
Şirəsi dərdə dərman.
Uşaqların sevdiyi
Sehrli, şirin alma.

Şəffaflığı gözyaşı,
Qabığı çox incədir.
Dadı, tamı, ləzzəti
Dərdlərin dərmanıdır.

***18 iyul 2014-cü il***

## ARI BALI

Arı çaldı əlini,
İynəsini batırdı.
Canını çox acıtdı,
Ufuldadı, sızladı.

Məryəm dedi: -bal verin,
Ürəyim bal istəyir.
Çörəyimə bal çəkin,
Acmışam, bal yeyim.

Anası gülüb dedi:
Ay mənim Məryəm qızım,
Sən bilirsən bu balı,
Nübarı arı verib?...

Məryəm çox təəccüb etdi,
Axı bal güldən olur.
Doğru deyirsən, qızım,
Arı güldən bal çəkir.

Zəhmətkeşdir arılar,
Məryəm çox fərəhləndi.
Unutdu acısını,
Arıları düşündü.

***18 aprel 2014-cü il***

## ZƏHMƏTKEŞ QARIŞQA

Qarışqa çox güclüdür!...
Uşaqlar, bilirsizmi?...
Çox ağır yük daşıyır,
Qarışqa zəhmətkeşdir.

Hey daşıyır yemini,
Qışa hazırlıq görür.
Heç durmadan çalışır,
Hər kəsi təccüb edir.

İşdən, gücdən qorxmayır,
Axı çox ağıllıdır.
Heç kəs ona toxunmur,
Tənbəllik nə, bilməyir.

İnsanlar çox sevirlər,
Onun haqqın yemirlər.
Qəhrəmanlıq rəmzidir,
Həm qoçaq, həm cəsurdur.

***18 iyul 2014-cü il***

# BAHAR GƏLİB

Bahar bayramı gəlib,
Üzlərdə təbəssüm var.
Hər kəs süfrələr düzüb,
“Bahar xoş gəlib”, -deyir.

Baharı qarşılayıb
Yumurta boyayırlar.
Tonqalları yandırıb
Üstündən tullanırlar.

Böyüklər də uşaqtək
Sevinir, şənlik edir.
Uşaqların xurcunu
Noğul, şəkərlə dolur.

Paylaşırlar, yeyirlər
Baharın nübarından.
Baharın gəlişinə
“Xoş gəlmisən”, -deyirlər.

***18 iyul 2014-cü il***

## ATA-ANA SEVİNCİ

Şarlar əlvan, cürbəcür,
Şişirilib balonlar.
Səmada quşlar təki
Qanad açıb uçurlar.

Çox sevimli, bəzəkli,
Hər cür rəngdən var orda.
Şişirilib balonlar,
Onlar qazla dolublar.

Şarlar səmada uçur,
Uşaqlar fərəhlənir.
Körpələr şarı qovur,
Birlikdə əylənirlər.

Sevincinə, şəninə
Həsrətlə baxır hər kəs.
İstəyirlər, dönsünlər
Qocalar gəncliyinə.

Ata-ana qoşulur,
Sevinci birgə bölür.
Əlindən bərk-bərk tutub
Onlarla birgə gedir.

***18 iyul 2014-cü il***

# MƏRYƏM XANIM ÇİÇƏKDİR

Məryəm nəvəm, de mənə,
Neçə çiçək yaşın var?
Əlində tutduğun şar
Neçə əlvan rənglidir?

Yollar gül-çiçək dolu,
Sən də güllər içində.
Çiçək rəngli donunu
Yellədirsən əlinlə.

Məryəmi səsləyirlər
Gözəl güllər içində.
Məryəm xanım boylanır
Yaşıl çəmən içində.

Yığır güldən bağlayır,
Dostları yardım edir.
Uşaqlar bir-birini
Çiçəklə sevindirir.

***18 iyul 2014-cü il***

# NƏVƏM NAĞILI SEVİR

Fateh nağılı sevir,
Nağılları dinləyir.
Özünü nağıllarda
Bir qəhrəman düşünür.

Düşünür, hey axtarır,
Nağılın sonunu görür.
Rəngarəng dünyasında,
Nağılda özünü görür.

Mənim nəvəm, Fatehim
Şirin nağıl söyləyir.
Hər kəs onu dinləyir
O, nənəsin dinləyir.

Canlandırır olayı,
Qəhrəmanı göstərir.
Nağıl kitablarının
Qəhrəmanını seçir.

Mənfi cəhəti sevmir,
Müsbət cəhəti sevir.
Kömək edir müsbətə,
Mənfiyə küsülüdür.

***18 iyul 2014-cü il***

# HƏYAT BİZƏ BİR BƏXŞİŞ

Arzum budur dünyada,
Sən bəxtəvər olasan.
Əbədilik dünyada
Sən əbədi qalasan.

Zaman xeyrinə vursun,
Durmasın, hey çalışsın.
Saatın rəqəmləri,
Saniyəsi düz olsun.

Qəlbin aramla, səssiz,
Xoşbəxtliklə döyünsün.
Qəlbin sevib-sevilsin,
Dəqiqəsi xoş olsun.

Öz axarıyla getsin,
Heç məcradan çıxmasın.
Dəqiqlik ölçüləri
Düz niyyətlə işləsin.

Həyat bizə bir bəxşiş,
Təmənnasız yaranıb.
Yaradıbdır yaradan,
Sən dua et durmadan.

***21 iyul 2014-cü il***

## “POLAD NECƏ BƏRKİDİ?”

***Həyatım, oğlum Cavid bəyə ithaf edirəm***

Bir uşaq vardı
Cəmi dörd yaşında.
Həyatın ağır yükün
Daşıyırdı çiynində.

Körpə, balaca oğlan
Onun adı Caviddir.
Polad necə bərkidi?
Həyatı bir romandır.

Taleyini düşünür,
Atasını gəzirdi.
Anasının üzünə
Suallarla baxırdı.

Məsum baxşılarıyla
Ətrafa göz qoyurdu.
Anlaya bilməyəndə
Düşünürdü, dururdu.

Nədənsə çox düşünür,
Cavabın axtarırdı.
Cavab tapmayan zaman
Gözləri yol çəkirdi.

Qəlbinə söz dəyəndə
Bulud təki dolardı.
Donuq baxışlarıyla
Dünyanı susdurardı.

Həyatı görünüşüylə
Acını daşıyardı.
Daşıya bilməyəndə
Oturub ağlayırdı.

Kədərli gözü gülməz,
Qəlbimi yandırardı.
Ah o, baxışlar mənim
Ürəyimi yaxardı!

İçin-için ağlayıb
Xısın-xısın güləndə,
Küncə, bucağa girib
Gizlində boylananda.

Gözləri yaşaranda
Sellər, sular coşardı.
Yağış kimi süzülüb
Navalçalar düzərdi.

Xoşbəxtliyi tapanda
Çağlayardı, gülərdi.
Sevincdən qanad açıb
Mələklərtək uçardı.

Dünyanı məftun edən
Körpə gülüşləriydi.
Ürkək, kövrək baxışlar
Həyatın mənasıydı.

Heç kəs düşünməsin ki,
Baldır, şirindir həyat.
Əksinə, etibarsız,
Dərin zindandır həyat.

Oğlum ağlayan zaman
Dönüb yumaq olardım.
Paramparça qəlbimdə
Həyat məzar olardı.

Dünyadan küsdürərdi,
Həyatla barışmazdım.
Özümü günahkartək
Nifrətimlə boğardım.

Kipriyimlə od aldım,
Qəlbim alışıb-yandı.
Zaman-zaman içimdə
Mən həyatdan öc aldım.

Əzablı yollar keçdim,
Min bir əzaba dözdüm.
Böyütdüm mən oğlumu,
İşıqlı yola çıxdım.

Sonunda sevindirdi
Qadir olan Allahım.
Oğlumun xeyir bəhrin
Öz gözlərimlə gördüm.

Oğlumun saf niyyəti,
Günəştək hərarəti,
Ömrümü isindirdi
Onun od məhəbbəti.

Dünyaya meydan dedim,
Zamana qalib çıxdım.
Oğlumu mən böyütdüm,
Haqqı qazandım dedim.

Cəsarət böyük qüvvə,
İradəli olmalı.
Mən varam, ayaqdayam,
Hələ burdayam, -dedim.

İndi sizlər söyləyin,
Söyləyin, kim günahkar.
Qara bəxtim, taleyim,
Yoxsa, azğın həyatmı?...

Deyin, vicdan susubmu,
İnsaf, mürvət hardadır?!
Bu cür gözəl gəlinin
Gözəl bəxti hardadır?!...

Nifrətlə əvəz etdim
Ona olan eşqimi.
Bilirdim ki, nankordur,
İlandan zəhərlidir.

Fidan, körpə gülləri
Qoparıb, qırıb atdı.
Sevimli, şən qəlbimi
Buz heykələ döndərdi.

Çağlayan gəncliyimi
Dayandırdı, susdurdu.
Körpə təki beşikdə
Boğdu körpə səsimi.

Heyif ki, günahkaram,
Ər seçəndə yanıldım.
Dilim ağzımda yandı,
Yanlış qərarı verdim.

Gərək heç sevməyəydim
Bu cür nankor insanı.
Gərək "hə" deməyəydim,
Süründürəydim onu.

Həyat belə qurulub,
Bu qismətdir, ey oğul.
Pis gün geridə qaldı,
İrəli bax, ey oğul.

Həyatım sənlə gözəl,
Sən həyatın özüsən.
Dünyaya səs verirəm,
Ana qəlbin odusan.

Xeyir-duam səninlə,
Xoşbəxt ol öz yarınla.
Acı-şirin günlərdə
Gülşən sənin yanında.

***1 avqust 2014-cü il***

## ƏLİRZA BƏY, TOYUNDU

***Bacım Səlminin nəvəsi Əlirzaya ithaf edirəm***

Gözün aydın,
Əziz bacım.
Nəvən sənə
Sevinc verir.

Arzun hasil
Olub bu gün.
Kiçik toyu
Fərəh verir.

Böyük toyu
Qarşıdadır.
Nəsib, qismət
O günü görək.

Şadlıq edək,
Mağar quraq.
Neçə alqış
Amandadır.

Ellər şahidlik eyləyir
Xeyir-dua dəsgah verir.
Alqış edir, gözün aydın,
Əlirzayla söhbət edir.

Nağara, kamança bərkdən,
Zurnanın səsi.
Alqışlar, şənliklər
Göyə ucalsın.

Gün o gün olsun ki,
Əziz nəvəmiz.
Elin adətiylə
Müsəlman olsun.

Əlirza bəyimiz
Bəylik taxtından
Hər kəsə xoş gülsün,
Təzim eyləsin.

Atası sevinsin,
Nənəsi gülsün.
Babası əl çalsın,
Ellər oynasın.

Əlirza bəyimiz
Çox xoşbəxt olsun.
Atası, anası
100 il yaşasın.

Əmisi, dayısı,
Gözəl bibisi
Mələk surətiylə
Başına dönsün.

Ayrubə sevimli,
Göyçək yengəsi.
Allah onun da
Tayın göndərsin.

Şənliklər birləşib
Sülhə qovuşsun.
Sevinclər bu evdən
Əskik olmasın.

"Aminlər" söylənsin
Hər bir ağızdan.
Dualar səslənib
Quran oxunsun.

***1 avqust 2014-cü il***

# HƏR KƏSİN GEDƏNİ GƏLSİN

Gecəsi var, gündüzü var,
Ağrısı var, acısı var.
Qəribliyin həsrəti var,
Həyatın tərsliyi vardır.

Ümid etdin, halva çaldın,
Dedin, ağzın şirin olsun.
Xəyal plovundan yedin,
Plovdan qarnın doymadı.

Xəyalında ata mindin,
Yel qanadlı atla uçdun.
Koroğlunun Qıratını
Göz qırpımında sən keçdin.

Əqlin təmiz, gözün toxdur,
Məqsədin var ucalmağa.
Sevgi bağından gül dərib
Yarın eşqin qazanmağa.

Gün o gün olsun hasil,
Gedənlər gəlsin!...
Hər kəsin gedəni,
Sevəni gəlsin.

***1 avqust 2014-cü il***

# NƏNƏLƏR HALAY ÇƏKƏR

Həyat səninlə başlar,
Zaman səninlə bitər.
Günəş səninlə doğar,
Günəş sənlə boylanar.

Düşüncələr, duyğular
Sevgini təsvir edər.
Sənin rəssam fırçanda
Həyatı əks etdirər.

Həyatıma gəldin sən,
Mənim günəşim doğdu.
Üzümdən kədər getdi,
Ruhum canlandı, durdu.

Dinləndi ürəyimdə
Yanıq kamanın səsi.
Ürəyimə toxundu
Sarı simin naləsi.

Həyat bir pəncərədir
Hər gələn baxar keçər.
Hər kəs aradığını
Axtarar, tapıb seçər.

Dünyaya izlər qoyar,
Gözəlliyin göstərər.
Gərəkli yolu seçər,
Həyata dəyər verər.

Deyər daşlı qaladır,
Bayatılar söyləyər.
Bu qala daşlı qala,
Nənələr halay çəkər.

***2 avqust 2014-cü il***

# SİRLİ QADIN

Ayrılıq son deyil,
Hələ ümid var.
Görüş yerinisə
Dəyişmək olmaz.

Unutmaq çətindir,
Sən də bilirsən.
Qəlbindən nar keçir,
Xəstə nar istər.

Başımda dolanır
Sevdanın qəmi.
Xəyallar götürür
Keçmişə məni.

Sorğular, suallar
Qəlbimi didir.
Cavabın gəzirəm,
Sirrin gizlədir.

Gözümün işığı,
Qəlbimin odu,
Sənə yad deyiləm,
Sənin yarınam.

Əlacım, ümidim,
Tək istəyimsən,
Qəlbini mənə aç,
Sevgimi istə.

Göydən ulduzları
Yığım səninçün,
Həyatımı qurban
Verim səninçün.

Nə olar, görüş ver,
Gəlim səninçün.
Dəyişmə qərarı,
Dəyişmək olmaz.

Sevimli qadınlar
Sirli dünyadır,
Həyatın mənası
Qadın özüdür.

İstərsən, çözəsən
Qadın sirrini.
Heç özünü yorma,
Bu mümkün deyil.

***2 avqust 2014-cü il***

# FÜZULİNİN LEYLİSİ

***M.Füzulinin "Leyli və Məcnun" poemasına və Q.Cavid bəyə ithaf edirəm***

Mehrabi eşqdir
Uca göylərin,
Eşqsiz, ey dünya,
Nədir dəyərin?

Dahi Füzuli də,
"Rəhmətlik" -deyək.
Bu gözəl qəzəli
Bəzədi, dedi.

Aldı qələmini
Yazdı Füzuli.
"Leyli və Məcnun" dastanını
Eşq əsərini.

Bəsirət pərdəsinə
Təmiz, aydındır, -dedi.
Leylinin surətini
Öz gözləriylə gördü.

"Leyli və Məcnun" dastanı
Yarandı, tarix qoydu.
Qərinələr, əsrlər,
Uzun yollardan keçdi.

Füzuli idealını
“Leyli və Məcnun” yaratdı.
Böyük eşqin gücünü,
Surətini yaratdı.

Zəmanə, dövran, hər kəs
Ata-ana qınadı.
İki sevən aşiqi
Həyat yaman sınadı.

Nədən aşiqsən ona?
O ki, bir dəli Məcnun.
Bircə dəlim çatmayır,
Allah ağlını versin.

“Leyli və Məcnun” üzülür,
Dərdinə yoxdur çarə.
İxtiyar sahibidir
Valideyn, zəmanə.

Güllü gülüstandadır,
Leyli gəzir Məcnunu.
Məcnun Leylidən uzaq
Qumlu səhralardadır.

Divaneyi divanda
Mən oldum Məcnun, -deyir.
Məcburam, dözüm, yolda
Leylini görüm, -deyir.

Gözü qalıb yollarda,
Dərd edibdir özünə.
Leyli sevir Məcnunu,
Canlanır xəyalında.

Məcnun gəzir Leylini,
Mənim yarım ol, -deyir.
Əlindən tutmaq üçün
Dünyanı verim, -deyir.

Leyli: “yox,yox”, -rədd edir,
Hələ çox tezdir, -deyir.
Sən Məcnunsan, adını
Üzərindən at, -deyir.

Məcnun düşür səhraya,
Ruhu rəvanım, -deyir.
Daşı tök ətəyindən,
Qalmadı tabım, -deyir.

Dərdim, qəmim yox olsun,
Xəyalım doğru olsun.
İşıq saçan gözlərin
Həyatda doğru olsun.

Leyli həya saxlayır,
İnsanlardan qorunur.
Çox qiymətli namusun,
Həyasını qoruyur.

Axı, necə “yar” desin?
Zəmanə qızıdır o.
İxtiyarı yox onun,
Mənim yarımsan, -desin.

Məcnun kədərli gəzir,
Qəlbin sənin daş, -deyir.
Əhdi-peyman unudan,
Məhəbbətin yox, -deyir.

Aşiqi dövran mənəm,
Mən sənin Məcnununam.
Zəmanəmin aşiqi,
Əhdə sadiq aşiqəm.

Qəm məni eylər həlak,
Can olmaz ruhdan uzaq.
Ruhum ruhuna bağlı,
Gecəmin Leylisitək.

Söhbət edir Leyliylə,
Çox yaxından dinləyir.
Əlini uzatsa da,
Onu tuta bilməyir.

Xəyal qurur özüylə,
Ruhunu dilləndirir.
Surətini gözünün
Önündə canlandırır.

Səba yelitək əsir,
Üz tutur səhralara.
Leylini sonsuzluqda,
Səhralarda arayır.

Eşq oduna yanıram,
Aşiqəm, sevirəm mən.
Gözüm dərddən tutulub,
Koram, karam, lalam mən.

Nizə vurdun qəlbimə,
Ey Leyli, bəsdir, -deyim.
Gecəm, gündüzüm yoxdur,
Qəlbim qübardır, -deyim.

Aşiqəm sevgindən,
Dərd dilləndirir.
Mən səni istəyirəm,
Fələk, gör, nə istəyir.

Sirrin vermədi dünya,
Səni məndən gizlətdi.
Eşqindən Məcnun edib
Səhralara yem etdi.

Yazmışdı yazan fələk
Qələmimi sındırdı.
Zalım həyat yönəltdi,
Divanə Məcnun etdi.

Can çəkir nəfəsimdə,
Həsrətdən, qəmdən deyim.
Son dəfə görmək üçün
Gedim Leyliyə dəyim.

Qəm-kədər içindəyəm,
Axtarıram Leylini.
Leylinin sorağını
Məzarlıqda buluram.

Leyli canını vermiş
Məcnunun həsrətindən.
Görmədikcə Məcnunu
Ömrünü qurban vermiş.

Anası ağlayır,
Saçını yolur.
Başına, gözünə,
Dizinə döyür.

Məcnun fəryad edir
Nakam sevgidən.
Ah-vay eyləyir,
Qəlbini tutur.

Yox, bu Leyli deyil,
Leyli ölməyib.
Leyli mənimlədir,
Leyli yaşayır.

Qəlbimdə, fikrimdə
Beynimdə Leyli.
Leyli həyat demək,
Həyat sönməyib.

Ah-nalə göylərdə
Son dəfə nəfəs alır.
Ruhun tapşırır Məcnun,
Ordaca canın verir.

Qoşa məzar ucalır
Nakam sevgililərə.
Bir gündə yaranıb
Bir gündə ölənlərə.

***25 avqust 2014-cü il***

# SƏN YADIMA DÜŞƏNDƏ

Azad quştək uçuram
Göyün yeddi qatında.
Sən yadıma düşəndə
Göydən yerə düşürəm.

Çağırıram mən səni,
Səsim çatsın səsinə.
Yetişim mən hər bir an
Sən olan hər bir yerə.

Həyatın çox üzü var,
Ağ-qaralı xətti var.
Axtarıram ağı mən,
Qara günlü qismət var.

Atıb getdin sən məni,
Kimsəsiz, yetim-yesir.
Ünvansız bir yerdəyəm,
Kimsə sezməyir məni.

Mənim eşqim tükənməz,
Tükənib getsəm də mən.
Dualarım səninlə,
Ölümə getsəm də mən.

***1 sentyabr 2014-cü il***

## GÜNAH OLUR

***Q.Cavid bəyə ithaf***

Surətin gözümdədir,
Səni görür gözlərim.
Sorğu-sual içində
Səni gəzir gözlərim.

Həyat şirin, çox əziz,
Çox sevirəm həyatı.
Ancaq həyatdan şirin
Şirindir məhəbbətin.

Həsrət çəkirəm indi,
Gözüm yollarda qalıb.
And içirəm, gəlməsən,
Həyat son verəsidir.

Yaşamaq istəmirəm,
Həyat mənə dar olur.
Vüsalın çox şirindir,
Yetməsəm, günah olur.

Həyat yaşam sevinci,
İnsanlar həmrəng olur.
Tək qalarsam cahanda,
Vallahi, haram olur.

***1 sentyabr 2014-cü il***

# YARALAR QÖVR EYLƏYİR

***Q.Cavid bəyə ithaf***

Filosoflar deyir ki,
Məhəbbət bir bəladır.
Dünyanın Şekspiri
Hər kəsi mat qoyubdur.

Həyatına sızılır
Heç xəbərin olmadan.
Qanınla bir süzülür
Yavaş-yavaş, durmadan.

Heç gecən, gündüzün yox,
Yatmağa qoymur səni.
İstəyirsən, durasan,
Durmağa qoymur səni.

Sevib-sevilmək üçün
Can atırsan şadlığa.
İstəyirsən, güləsən,
Gülməyə qoymur səni.

Hakim olub beyninə
İdarə edir səni.
Sən gözünü açmamış
Gözünün kipriyində.

Sərhəd çəkib yoluna
Çaş-baş salıbdır səni.
İstəyirsən, keçəsən,
Keçməyə qoymur səni.

Gecən, gündüzün yoxdur,
Yuxusuz qoyub səni.
Əlac yoxdur dərdinə,
Dərmansız qoyub səni.

Ümidinsə qırıqdır,
Sonu heçdir, boşluqdur.
Sən səadət düşünmə,
Əlin boş havadadır.

Nə təbibdir, nə loğman
Bu dərdinin əlacı.
Əlacın o yardadır,
O da "yarım" deyirsə.

Yaralar qövr eyləyir,
Bədənini sarıbdır.
Ruhun bədəndən çıxır,
Yarın əhvin veribdir.

***1 sentyabr 2014-cü il***

# ÜZ ÇEVİRMƏ

Dərdinin dərmanı
Özüm olum, yar.
Dərdinə məlhəmin
Tək mən olum, yar.

Qulun, kölən olum,
Yanında qalım.
Bu ömür yolunda
Səfan olum, yar.

Həmdəmin mən olum,
Gəl, yanımda qal.
Mən özüm qurbanam
Sənə, gözəl yar.

Şirin söhbət açım sənə,
Şirin söhbət eylə mənlə.
Alım götürüm dünyadan,
Göylərə aparım, ey yar.

Dil-dodağın bal-şəkərdir,
Söhbətlərin bir gövhərdir.
Mücrüdəki ləl-cəvahir
Sənin gözəl gözlərindir.

Gözlərimdən getmə uzaq,
Gedərəm özümdən, yar.
Ay üzünə qurban olum,
Üzündən nur ələnsin, yar.

Mən sevirəm səni, ey yar,
Çarəsizəm sənsiz, ey yar.
Heç kəs düşməsin bu dərdə,
Dərdim əlacsızdır, ey yar.

Üz çevirib gedir məndən,
Sorğu-sualsız gedir o.
Ümid işığını alıb,
Günəşi aparıb gedir.

***1 sentyabr 2014-cü il***

# SƏSSİZ GECƏ

***Q.Cavid bəyə ithaf***

Gözəlliyi görmək üçün
Gözəllərin gözüylə bax.
Ürəyini duymaq üçün
Ürəyinin səsinə bax.

Çayların xoş şırıltısı,
Gözəl musiqi sədası.
İnsanın duyğu tərzidir
Yaşıllığın xoş havası.

Şəfqətlidir, çox kövrəkdir,
Mehribandır, mülayimdir.
Təbiətdə qızıl lalə
Odlu-alovlu gözəldir.

Çiçəklərin zümzüməsi
Pıçıltıyla söylənməsi
Sevənlərin xoş sözüdür,
Necə gözəl bir gecədir.

Sevənlərə hədiyyədir,
Səadətin son həddidir.
Gözəl yağış havasıdır,
Romantik, səssiz gecədir.

***1 sentyabr 2014-cü il***

## OLAN MƏNƏ OLUBDUR

İllər ötüb-keçdikcə
Qara saça dən düşür.
Yadındamı o günlər?
Cavanlıq yada düşür.

Şirin söhbət edirik,
Canlanır xatirələr.
Keçən, ötən günlərin
Qayğısını çəkirik.

Əlbəttə ki, şirindir
Sevginin əzabları.
Xatirələr tükənməz,
İllər tükənsə, ötsə.

Uşaq kimi kövrəlib
Bir küncə qısılmışam.
Heç kəs məni görməyir,
Səssizcə dayanmışam.

Boğur, qəlbimi didir,
Son notlarda kövrəlir
Xatirələr yürüşdə,
Sanki, mənlə savaşda.

Bəsdir, deyirəm artıq,
Kifayətdi qəm-qüssə.
Keçdi getdi o günlər,
Gedən qayıtmaz artıq.

Olan mənə olubdur,
Yaddaşım nə istəyir?
Köhnə çuvalı söküb
Yenisin təzələyir.

Daha keçib o günlər,
Unutmaq istəyirəm.
Mənim də haqqım artıq,
Dincəlmək istəyirəm.

***2 sentyabr 2014-cü il***

# AÇ NİQABI ÜZÜNDƏN

Gəlib dursam yanında,
Bağ-bağçanda, yolunda.
Nahaq gözünü yorma,
O, görünməz, -dedilər.

Anan, nənən yolumda,
Qoruyur səni məndən.
Dedim, qaçırım səni,
Sənlə qaçmaz, -dedilər.

Saçın sarı günəştək,
Alnın açıq aybəniz.
Qulun, kölən mən olum,
Dur get burdan, -dedilər.

Bu eşqin sonu yoxdur,
Bu eşqim əbədidir.
Tükənməzdir eşq odu,
Bunun sonrası yoxdur.

Qayıt ötən illərlə,
Qaytar keçən günləri.,
İllər geriyə dönməz
Bunun faydası yoxdur.

Saç ağartdım bu yolda,
İllərim boşa çıxdı.
Zaman, illər ötüşdü,
Əllərim boşa çıxdı.

Duyğulandım həsrətdən,
Sevdiyimi görmədim.
Gizlətdi gül üzünü,
Gözlərini görmədim.

Səni anan vermədi,
Mənə uyğun görmədi.
Neyləyəsən, dərdindən
Saralıram, ay gözəl.

Aç niqabı üzündən,
Görüm gözəl gözünü.
Nə olar, mən yetişim
Vüsalına, ay gözəl.

***2 sentyabr 2014-cü il***

# İNSANI SEV HƏR ZAMAN

Anamın bətnindəydim,
Dünyaya doğulmuşam.
Tanrının öz hökmüylə
Sizi deyib gəlmişəm.

Qəlbim, ürəyim vurur,
Vurmasa, yaşamaram.
Sevgi, sevinc gətirdim,
Paylaşmağa gəlmişəm.

Ata-ana ocağı
Mehribandır, əzizdir.
Tanrının öz quluyam,
Sevilməyə gəlmişəm.

Ürəyimin səsi var,
Dinlə, ona qulaq ver.
Ürəyin hökmü böyük,
Ürək çağlayım, -deyir.

Qürurun qırılmasın,
Ürəyin daim sevsin.
Gözün yarın gözündə
İlanlar sayrışmasın.

Bir körpə uşaq kimi
Təmiz, duyğulu yaşa.
Nifrətdən, kindən uzaq,
Hər zaman doğru yaşa.

Uşağa ver oyuncaq,
Böyüyün qayğısın çək.
Sevdiyin gözəl yarın
Sevərək nazını çək.

Qəlbini sən incidib,
Onu qırıb məhv etmə.
Buza döndərib onu
Heykəlini yaratma.

Sev insanı hər zaman,
Yaşat onu, yaşasın.
Xoşbəxt ömür yolunda
Bildiyini anlatsın.

***2 sentyabr 2014-cü il***

# GÜNƏŞ ÜZLÜ GÖZƏLİM

Gözü, qaşı mənalı,
Qəlbindən xəbər verir.
Sürmə, məsmə özündən,
Saflıqdan xəbər verir.

Yandırır, yaxır məni,
Eşqindən xəbər verir.
Hüsnü, gözəl baxışı
Camaldan xəbər verir.

Dərdimi heç bilməyir,
Halımı soruşmayır.
Günəşl bəhsə girib
Qızmar günəşəm, -deyir.

Məftun olub qalmışam,
Tabım yox söz deməyə.
Amandır, çıxıb getmə,
Atma məni bərəyə.

Günəş də yaxır məni
Sənin gözəlliyində.
Ətrafa nur çiləndi,
Tellərin səpələndi.

***2 sentyabr 2014-cü il***

# HEÇ AYRILIQ OLMASIN

Qoşa çinar altında
Oturmuşam, tənhayam.
Gözüm yola dikilib,
Pərvanəyəm, dardayam.

Məhəbbət böyük qüvvə,
Məni sənə gətirib.
Həyatın bir anında
Səni mənə yetirib.

Axşam düşür, qaralır,
Ümid işığındayam.
Qəlbim eşqindən yanır,
Sevinc işığındayam.

Uzaqdan görünürsən,
Mənim qəlbim çırpınır.
Əllərim bərk titrəyir,
Dilim ağzımda yanır.

Ürkək-ürkək boylanıb
Sağa-sola baxıram.
Nəzərimi qaçırıb
Utanıram, susuram.

Söz tapmıram deməyə,
Lal kimiyəm, dinmirəm.
Sakit, səssiz nəzərlə
Sual edir, soruram.

Əzizim, gözəl yarım,
Sən harada qalmısan?
Mən səni çox sevirəm,
Heç ayrılıq olmasın.

Zülmət qaranlığında
Çox gözəl görünürsən.
Ağ libasda gəlmisən,
Ağ qağayı kimisən.

Hər şey gözəl görünür
Gözəl ürəyin kimi.
Nəzərlərin, baxışın
Həyat sevgisi kimi.

Allahdan dua edim,
Hər şey yolunda getsin.
Yazın mənə yazılsın,
Qismətin mənim olsun.

Yığılsın dost, tanışlar,
Ellər şənliyə gəlsin.
Qovuşaq biz səninlə,
Gedənlər tez qayıtsın.

***2 sentyabr 2014-cü il***

## ÜRƏKLƏR DONARSA

Ürəklər donarsa,
Gül-çiçək solar.
Ruhun gözlərisə
Bulaqtək dolar.

De bir, nədir günahım,
Bu qədər zülm edirsən?
Gözəl gözləri süzüb
Ürəyimi üzürsən.

Qanadsız quş uçarmı,
Qanadımı qırırsan.
Ümidsiz yar olarmı,
Ümidsiz buraxırsan.

Qurumuş dodağımda
Bir damla su olginən.
Neynim, nağarım zaman
Sən yanımda olginən.

Saçının tellərində
Qızıl sancağın olum.
Gözəl bir səhər çağı
Gözündə yuxun olum.

Mən səni çox sevirəm,
Arzumun qanadısan.
Sən Leylisən, mən Məcnun,
Səhrada dolaşıram.

Sev, bulaqtək çağla sən,
Gözəl surətin olum.
Bulaqdan su daşı sən
Əlində səhəng olum.

Çıraq yandır evimdə
İşıqlı günə çıxım.
Bir ömür sənlə qoşa
İşıqlı yola çıxım.

***5 sentyabr 2014-cü il***

## FİKRİM, RUHUM SƏNİNLƏ

Ümid işığının
Son nöqtəsində
Ömrümə, günümə
Bir günəş doğar.

Sənin gülüşlərin
Elə gözəl ki,
Fikrimi, ruhumu
Tərtəmiz edir.

Gözəl düşündürür,
Gözəl danışır.
Hissimi, ruhumu
Özü qoruyur.

Ruhu təravətli
Bir çiçək kimi,
Özü təbiətdə
Gül-çiçək əkir.

Qulluğunu çəkir
Solmasın deyə,
Qırılmasın deyə
Qəlbini verir.

Dünya da, təbiət də
Gözəl görünür,
Həmahəng görünür,
Qoşa görünür.

Məhəbbət daşıyır,
Həyat paylaşır.
İkisi də insanla
Ümid paylaşır.

İnsan da cəhd edir,
Xoşbəxt yaşasın.
Sağlam düşüncəli,
Sağlam yaşasın.

Kədəri tez atsın,
Qəmi unutsun.
Sevgi toxumları
Dünyaya düşsün.

Ətirli gül dərsin,
Ətrini duysun.
Bütün sevənlərə
Öpüb göndərsin.

Yaşayıb-yaratsın,
Qədrini bilsin.
Bu günü, sabahı
Yarını düşünsün.

***5 sentyabr 2014-cü il***

## BAŞQASININ YARISAN
***Q.Cavid bəyə ithaf***

İndi hicran zamanı
Sən hicranı seçmisən.
Əllərimi buraxıb
Başqa yarı seçmisən.

Gəldi, ayrılıq çağı,
Səni tapa bilmədim.
Baharda bənövşətək
Gəldin, qışda yox oldun.

Gözləyəcəm səni mən,
Ömrüm sona versə də.
Əlim, üzüm qırışıb
Dərdindən bükülsə də.

Nə söyləyim sənə mən?
Yolun açıq, -deyərlər.
Bir gün peşmanlıq çəkib
Gəlib dönsən, -deyərlər.

Şübhə girir qəlbimə,
Kədər-qüssə aparır.
Hicran, ayrılıq salır,
Məni alıb aparır.

Həsrətdən donmuşam mən
Üşüyürəm gizlicə.
Kəlmə kəsə bilmirəm,
Küsmüşəm mən səssizcə.

Gözüm hər yanda gəzir,
İtirmişəm səni mən.
O gözəl gözlərini
Söylə, harda görəcəm.

Gözlərim yolundadır,
Ümidim qırılmayıb.
İndi, bu saat gələr,
Ürəyim narahatdır.

Ağappaq qar bəzəyib
Saçlarımı, sevgilim.
Nə tez zaman alıbdır
İllərimi, sevgilim.

Gözüm yolunda qalıb,
Bir ömür gözləyəcəm.
Təki xoşbəxt olginən,
Sənsiz xoşbəxt olmadım.

***5 sentyabr 2014-cü il***

# HƏR KƏSİ BULAĞA ÇƏK

Bülbülün nəğmələri
Səhər oyadır məni.
Günəşin şəfəqləri
Üzümə gülür mənim.

Oyan, -deyir, gözəlim,
Naz-qəmzəni az eylə.
Yuxun şirindir, billəm,
Oyan, yatma bir böylə.

Çiçəklər, güllər qoxur
Şirin ətri, şehiylə.
Kəpənəklər uçuşur,
Çağırır çöl-çəmənə.

Gözəl kölgə meşəlik,
Çəmən-çiçək yam-yaşıl.
Keçdikcə o cığırdan
Getmə, -deyir, bir qayıt.

Bulağın şırıltısı
Gözyaşı tək şəffafdır.
Coşur, çağlayır, -deyir,
Şəfalı sulardan iç.

Dağlar qoşa yaranıb,
Gözəllikdə tayı yox.
Məğru, fikirli, laldır,
Meşələri gözləyir.

Ürəyimdə məhəbbət
Gəzdirirəm vüqarla.
Təbiəti qoruyur,
Onu qoruqçusuyam.

Ayrılmaq istəmirəm,
Təbiət heç istəmir.
Hər kəsi öz qoynuna
Öz yanına səsləyir.

Deyir: -Ayrılma məndən,
Süfrəm, ürəyimi açıq.
Yığ başına dostları,
Hər kəsi bulağa çək.

***6 sentyabr 2014-cü il***

# SOLDUM XƏZƏL KİMİ

Camalın, surətin
Gövhərdən incə,
Görənin səbrini
Sona verdirir.

Sayəndə Fərhad yox
Məcnun oluram,
Ağlımı alırsan,
Heç bilməyirsən.

Amandır, dur getmə,
Sözümü dinlə.
Şirinin Fərhadı
Olum mən bir də.

Mənim məhəbbətim
Elə güclü ki,
Fərhaddan, Məcnundan
Daha güclüdür.

Sənin məhəbbətin
Elə şirin ki,
Acıdan acıdır,
İçmək olmayır.

Nə qədər acizəm,
Nə qədər miskin.
Gözlərin önündə
Çarəsizəm mən.

Gözlərin gözəldir,
Bənd edir məni.
Çarəsiz qulunam,
Qurbanın olum.

Məndən uzaqlaşma
Bir xəyal kimi.
Yuxumu çin elə,
Qurbanın olum.

Həsrət qoyma məni,
Həsrətli qalım.
Solum xəzəl kimi,
Lazımsız olum.

***6 sentyabr 2014-cü il***

# AY NİGAR

***Mərhum qızım Nigara həsr edirəm***

Gözlərinə can qurban,
Mənim olsan, ay Nigar.
Həyatımı almısan,
Nə olar, qaytar, ay Nigar.

Dəqiqələr səninlə
Şirin olur, bal olur.
Qara gözün həsrəti
Yaman olur, ay Nigar.

Yar bağında görün sən,
Görüm səni, şad olum.
Həyat sənlə gözəldir,
Deyim, gülüm, şən olum.

Gül-çiçəkdə gəzirsən
Bağçaların içində.
Ətirli güllər göndər,
Mən möhtacam, ay Nigar.

Hər dərdinə dözərəm,
Təki "hə" de, ay Nigar.
Gəl, dəstə yığ güllərdən,
Yara göndər, ay Nigar.

Nahaq fikrin dəyişmə,
Yaşamaram mən sənsiz.
Sən varsan, həyat yaşar,
Həyat sənsən, ay Nigar.

Qədir-qiymətin böyük,
Ürəyimdə yerin var.
Ürəyim alovlansa,
Eşqindəndir, ay Nigar.

***6 sentyabr 2014-cü il***

## YENİ HƏYAT

***Nəvəm Gilə xanıma ithaf***

Hüsnü camalını görüb
Səni daha gözəl görür.
Qısqanır səni durmadan,
Sən gəlməmiş o yox olur.

Ağ əllərin pəmbə kimi,
Dodaqların incə, qəşəng.
Ağappaqsan ağca maya,
Gözəlliyin tamaşadır.

Hansı elin gözəlisən,
Bu cür gözəl yaranmısan?
Təbiətdə, dağ qoynunda
Gözəlliklər yaratmısan.

Ovçulardan uzaq gəzib
Əllərindən yaralısan.
Gözəlliklər məskəninə
Yeni həyat gətirmisən.

Tapmacanı açım deyim,
Günəşdir səndən gizlənən.
Surətini bəlli edir,
Bu günəşin tam özüdür.

***7 sentyabr 2014-cü il***

## GÜNƏŞ TƏKİN

Hər bir elin adəti var,
Adətlərə hörmət edək.
Duyğusuz insan deyilik,
Duyğularla oynamayaq.

Quşlar uçsun,
Güllər açsın.
Cənnət quraq
Yer üzündə.

Güllü gülüstana dönsün
Hər xalqın öz vətənində.
Zövq versin həyatın səsi,
Cənnət yurdu vətənimdə.

Hər bir eldən
Qonaq gəlsin.
Qarşılayaq
Gül-çiçəklə.

Bilməsən də, nə vaxt gələr.
Düz qədəhi süfrələrə.
Zinət, gözəllik bəxş eylə,
Sevən, vuran ürəklərə.

İnciklik, küsü olmasın,
Sev insanı, yaşa yarat.
Xoşbəxtlik tumu səpələ,
Başlarına nur səpələ.

Keçmiş günləri unudub,
Yeni günləri çözələ.
İşıq alıb bu sevgidən
Həyatını sən təzələ.

Müqəddəsdir məhəbbətim,
Onu qırmaq çox çətindir.
Günəş kimi sarıl ona,
Təravətli gül-çiçəkdir.

***7 sentyabr 2014-cü il***

# MƏNİM GİLƏ NƏVƏM

***Yeni doğulmuş Gilə nəvəmə ithaf edirəm***
***Allah xoşbəxt etsin***

Qara gözlü nəvəmdir,
Gözləri göyçək gülür.
Adaş olub mənimlə,
Giləmdir gözlərimdə.

Həyatım qurban olsun,
Bu cür qara giləyə.
Həyatıma gəlibdir
Həyatı sevdirməyə.

Gözəllikdə tayı yox,
Şirinliyi baldan çox.
Duzu, istiotu azdır,
O bir körpə quzudur.

Bacı, qardaşı güldür,
Özü körpə fidandır.
Dərdimin dərmanıdır,
Qara gözlü Giləmdir.

Gülüş qəhqəhəsi
Baxışında həyat eşqi.
Nəfəs versin gül-çiçəyə
Körpə uşaq gülüşüylə.

Yazı, qışı xoş keçirsin,
Ömrünü çox şən keçirsin.
Ata-ananın qoynunda
Firavan həyat keçirsin.

Aya, ulduza ucalsın,
Günəşi hər vaxt parlasın.
Mənim nəvəm sülh göyərçin
Dünyaya sevinc paylasın!

***11 sentyabr 2014-cü il***

# BALACA GİLƏ XANIM

***Gilə nəvəmə ithaf edirəm***

Qara gözlü qara qız,
Bəxtin ağ olsun barı.
Həyatında doğru yol
Uğurun olsun barı.

Ömrünə çıraq tutsun
Həyat, yaşam qüdrəti.
Uca ənginliklərdə
İşığın olsun barı.

Təzə həyat gətirdin,
Gəlişin toy-mağara.
Eşitsin dost, tanışlar,
Yığışıb gəlsin barı.

Səsli, sözlü, avazlı,
Gözəl səs tembrin var.
Oxu bülbüllər kimi
Nəğməkar ol sən barı.

Neynim, nağarım demə,
Sən xoşbəxt olacaqsan.
Şirin, acı günlərə
Sən şənlik qatacaqsan.

***12 sentyabr 2014-cü il***

# MƏNİM GÖYÇƏK GİLƏM

***Nəvələrimə ithaf edirəm***

Sən ömrümə bəzəksən,
Ay mənim körpə qızım.
Həyatım sənə qurban,
Ay mənim nazlı qızım.

İsti ana qoyunda
Qısılıb gizlənirsən.
Xumarlanıb sevgidən
Ananı inləyirsən.

Məhəbbəti hiss edib
Qanında coşdurursan.
Ana qəlbini duyub
Ananı dinləyirsən.

Tənhalıqdan çox qorxur,
Ağlayıb kövrəlirsən.
Qayğı, sevgi istəyib
Əllərini açırsan.

Heç durmadan ağlayıb
İstəyinə çatırsan.
Ayağını bərk vurub
Gözlərini yumursan.

Hərdən gülüb üzümə
Can atırsan qucağa.
İstəyinə çatınca
Dünya olur macəra.

Nənən yazdı bu şeiri,
Səni tərənnüm etdi.
Ananı sənin kimi
Şeirdə əks etdirdi!

***12 sentyabr 2014-cü il***

## DÜŞÜN, DAŞIN, EY İNSAN!

Bu gecə nə gözəldir,
Bəzənib gəlin təki.
Ağ duvaqlı gəlindir,
Geyinib ağ paltarı.

Mirvari səpələnib
Qoynuna göy Xəzərin.
Su pəriləri üzürlər,
Süzürlər göy Xəzəri.

Dənizin qırağında,
Qayada bitib çiçək.
Durnalar, qağayılar
Qoşurlar həsrətlitək.

Həyat belə gözəldir,
Bəyaz gecə, göy dəniz.
Mavi səmada quşlar
Qanad açır uçmağa.

Arzu, ümid gəzdirir
Quşlar verib baş-başa.
Azadlıq carçısıdır,
Bəyan edir hər kəsə.

Həyat bir dəfə gəlir,
Düşün, daşın ey insan.
Sonra artıq gec olar,
Bir fikirləş, ey insan.

De ki, həyat gözəldir,
Sağlam yaşamalıyam.
Planeti, insanlığı,
Sülhü qorumalıyam.

***12 sentyabr 2014-cü il***

## YERİNİ BİLMƏLİDİR

Gözümü yumuram,
Sirlər görünür.
Dəqiq ox üstündə
Dünya görünür.

Düzülübdür, sayı çoxdur,
Ulduzların yeri bəlli.
Yeri, günəşi, dünyanı
Yaradan tək bir Allahdır.

Dəniz bizə həyat verir,
Dağlar düşmən çəpəridir.
Torpaqlarım qızıldan çox
Canım qədər qiymətlidir.

Qışın, yazın öz yeri var,
Hər fəslin öz dəyəri var.
Vaxtı gəlib çatan zaman
Öz yerini tapmalıdır.

Sirli-soraqlı dünyadır,
Neçə alim yığışsa da,
Çözə bilməz sirlərini,
Açarı tək Allahdadır.

Nəfəs alıb gedən zaman
Həyat eşqi böyük deyir.
Təngnəfəs olan zaman
Tək ümidi Allahadır.

İnsanlığı qoruyaq biz,
Çünki insan yaranmışıq.
Pislər yaxşıdan utanıb
Yerlərini bilməlidir.

***12 sentyabr 2014-cü il***

# ӘMRİNİ VERӘN ALLAH

Narahat anlar keçib,
Dəqiqəni sayıram.
İndi öz yarım gələr,
Nigaran gözləyirəm.

Həyat eniş-yoxuşdur,
Hər cür yolları vardır.
“Əhsən” deyim o kəsə
Öz yolun tapacaqdır.

Həyat döyüş, cəbhədir.
Qalib çıxan yenilməz.
Güclü, qüvvətli əsgər
Generaldan əzəldir.

Tale gülür üzümə,
Azadam vətənimdə.
Qurub, yaradıb, tikib,
Yaşatmağa qadirəm.

Allahım çox görməsin
Ümidimi almasın.
Sevib yaradım mən də,
Qələmim qırılmasın.

Yaradıcı insanam,
Gözəl ana, nənəyəm.
Oğluma böyük dayaq,
Gəlinimə rəfiqəyəm.

Hörmətim, ad-sanım var,
İşimdə, həm gücümdə.
Hələ həyat yolunda
Keçilməmiş izim var.

Həyat özü yönəldir
Səni, məni, hər kəsi.
Düşünürəm, yarımçıq,
Deyilməmiş sözüm var.

Qərar qəti qoyulub,
İmzanı atan Allah.
Məni seçib göndərib
Əmrini verən Allah.

***14 sentyabr 2014-cü il***

# GÜNAHKAR QULUN

Günahsızam, -deyirsən,
Günahsız qulun yoxdur.
Səhv buraxıb həyatda
Fərqinə varmayırsan.

Nə deyim bu cürətə,
Bəlkə, doğru deyirsən.
Fala baxan falçının
Sözü, bəlkə, düz çıxa.

Bu cür gözəl gözlərin,
Gözəl qamətin vardır.
Baxışın bir mələktək
Gözün ahu ceyrandır.

Ölürəm mən, xəstəyəm,
Mənim əlacım yoxdur.
Günahım yox, -deyirsən,
Sənin günahın çoxdur.

Bəs, bu günah deyilmi,
Mənə tərəf baxmırsan.
Baxırsan başqa səmtə,
Dönüb məni görmürsən.

Zaman qaçır, qovuram,
Heç cür tuta bilmirəm.
Can atıram söhbətə,
Dilim laldır, dinmirəm.

Körpə uşaq kimi tək
Qarşında əyilmişəm.
Günahkar qulun kimi
Boynubükük durmuşam.

***14 sentyabr 2014-cü il***

## FATEH SOLTAN MƏKTƏBDƏ

***Fateh Soltan nəvəmə ithaf edirəm***

Nənə, bala heyranıq,
Gəzişirik bulvarı.
Düşünürük Xəzəri
Xəzərin sahilində.

Gözəl söhbət edirik,
Nəvəm nağıl söyləyir.
Ordan-burdan danışıb
Çoxlu suallar verir.

Maraqlı sual edir,
Hər şeylə maraqlanır.
Soruşaraq təəccüblə
Bilmədiyin öyrənir.

Onunçün qəribədir
İnsanlarla görüşdə.
Hər kəsin xarakterin
Hər kəsdən gözəl bilir.

Onun 5-cə yaşı var,
Məktəbə getməlidir.
Hələ çox kiçikdir o,
Çox şeyi öyrənməlidir.

Nəvəm Fateh Soltandır,
Adıyla böyüsün o.
Məktəbə gedən zaman
Dostlardan geri qalmasın o.

Kitab-dəftəri sevib
Dərsə müntəzim olsun.
Yazı-pozu işini
Müəllimdən öyrənsin.

Dərslikləri üzləyib,
Təmiz baxıb saxlasın.
Dərsini hazırlayıb,
Əl qaldırıb söyləsin.

5 alsın dərslərindən,
Tək arzum budur mənim.
Gələcəyə vətəndaş,
Əsl insan böyüsün.

***14 sentyabr 2014-cü il***

# QAYĞI GÖSTƏRMƏLİDİR

***Yaşlı insanlara ithaf edirəm***

Yazıram, səsim yetsin,
Çünki şairəyəm mən.
Dünyanın gedişini
Qələmimə köçürüm.

Dünyanı ağ-qara yox,
Rəngarəng görməliyəm.
Gözəl düşüncələrdən
Xalılar hörmətliyəm.

Naxışlardan nəqqaştək
Gözəl əsər yaradıb,
Sözlər yaddaşda qala
İncilər düzməliyəm.

Sözlər dürrtək sayılsın,
Sözlər dəyərli olsun.
Körpə məhəbbətitək
Saf olsun, təmiz olsun.

Sazı alım köksümə,
Dərdim, qəmim az olsun.
Sarı simə toxunum,
Sünbüllər tel-tel olsun.

Arzular çiçək açsın,
Ümidlər yox olmasın.
Gələcəyə baxanlar
Uğuru xeyir olsun.

Zindana günəş doğsun,
Aydın səhər görünsün.
Yenidən həyatına
Təzə səhifə acılsın.

Körpələr böyüməli,
Gənclik çağlamalıdır.
Yaşlılar hüzur gəzib,
Tapıb dincəlməlidir.

***14 sentyabr 2014-cü il***

# GİLƏ ADLI YARIM VAR

***Gilə nəvəmə ithaf edirəm***

Həyat dünya, asiman,
Yığışıb hər bir eldən.
Axıb gəlib qonaqlar,
Elin öz adəti var.

Ayaq altda xalıtək
Səpələnib çiçəklər.
Yar keçəcək bu yerdən,
Su səpməyin yeri var.

Gilə xanım gözəldir,
Ətri özündən gözəl.
Baxışları, duruşu
Ahu gözlü ceyrandır.

Həyatda bacarıqlı,
Ona heç bir tay olmaz.
Əkdikləri cücərir,
Əkir, biçir, becərir.

Gilə gözəl-göyçəkdir,
Gözəllikdə əvəz yox.
Bir gilə toxum əkdi,
Bir dünya sevinc biçər.

Gözlərimin qarəsi
Qaragilə üzümüdür.
Adı da özü kimi
Gözəldir, şipşirindir.

Giləlонib nar kimi
Şirin üzüm giləsi.
Nar çiçəyi qoxusu
Gilənartək giləsi.

Çiçəklərin içində
Qara gilə toxumudur.
Əlvan naxışlar, güllər
Gilənin qoxusudur.

Gilə nəvəm oturmuş
Xalının baş ucunda.
İlmələri axtarır
Gələcəyin ucunda.

Qızılgülün naxışı,
Ətri bihuş eyləyir.
Çeşnisini çıxardır
Gilə xalı toxuyur.

Ev qurur öz evini,
Evin xalısı olsun.
Gilə xanım evində
Həm xanım, həm yar olusun.

Həyat gözəl, mənalı,
Qara gözün gözüylə.
Qara gözün şöləsi
Apaydın, nurlu olsun.

Gilənarın giləsi
Qara gilə üzümüdür.
Qara gözün giləsi
Qara gözün nurudur.

Həyat, səndən ricam var
Bir az mənə zaman ver.
Düzüm, qoşum illəri,
Gilə adlı yarım var.

***14 sentyabr 2014-cü il***

# MƏKTƏB ZAMANI

***Nəvəm Fatehə ithaf edirəm***

Sabah ayın 15-i,
Məktəblərin vaxtıdır.
Məktəbə gedən gənclər
Çox qoçaqdır, qıvraqdır.

Üç ay tətil ediblər,
Yaxşıca dincəliblər.
Məktəbə hazırlaşıb,
Çantanı doldurublar.

Həvəslə kitab alıb
Dəftərləri yığıblar.
Səliqəylə çantaya
Dərslikləri düzüblər.

Əziz müəllimlərini,
Dostları görəcəklər.
Öpüb basıb bağrına,
Darıxdım deyəcəklər.

Sual edib, soruşub
Hal-əhval tutacaqlar.
Gəlmiş-keçmiş günlərdən
Yadına salacaqlar.

***14 sentyabr 2014-cü il***

## ƏLİRZANIN ATASI

***Bacım oğlu Maqsuda ithaf***

Boylu-buxunlu igid,
Yaraşıqlı oğulsan.
Sən anana, atana
Bir arxasan, dayaqsan.

Dilin baldan şirindir,
Xasiyyətin ipəkdən.
Kəlağayı qurdu da
İpək alır saçından.

Həyat verirsən gülə,
Gül səndən pöhrələnib.
Gözəl Əlirza oğlun
Ürəyindən su içib.

Kökünün davamçısı,
İnsanpərvər olacaq.
Babasıtək hörmətdə
Nəsildə ad qoyacaq.

Əlirza gözəl oğlun,
Allah bəxtini yazsın.
Öz adıyla böyüsün,
Adına layiq olsun.

***14 dekabr 2014-cü il***

# ƏLİRZADIR BAL ADI

***Bacımın nəvəsinə ithaf edirəm***

Şirin bal bala şəkər,
Əlirzadır öz adı.
Göz ağıdır hər kəsin
Giləsidir nənənin.

Topuş-topuş yeriyir,
Şirin-şirin yürüyür.
Nazlı-duzlu bu bala
Hər kəsə sevinc verir.

Babanın öz balası
Atanın ümid payı.
Anasına arxadır,
Ailədə bir dayaqdır.

Hər kəs ondan güc alır,
Hər kəsə yaşam verir.
Həyatın özü kimi
Hər kəsə həyat verir.

Böyük gücə malikdir
Ümid işığı kimi.
Hər kəs onunla bahəm
İrəliyə yol açır.

Aydın edir yolları,
Gülüş saçır üzündən.
Dodağından kəlmələr
Ana vətən, sülh deyir.

Hər kəs sevir balanı,
Bala baldan şirindir.
Öpür bağrına basır,
Heç kəs ondan doymayır.

***14 dekabr 2014-cü il***

## İKİ QARDAŞ

***Bacım oğlu Eldənizə ithaf edirəm***

Eldəniz-bacım oğlu
Baldan da şirindir çox.
Dadından doymaq olmur,
Cənnətin nübarı çox.

Allahın mərhəməti
Əskik olmayıb ondan.
Gözəl ürək, gözəl qəlb,
Zəka, güc verib ona.

Düzgün, doğru yoldadır,
Tanıyanlar bilirlər.
Çox mehriban bilirlər,
Qayğı göstərir sənə.

Həyandır qohumlara
El-obanın dostudur.
Qardaşı Maqsud bəyin
Sevincinə şərikdir.

Hər ikisi fəxarət,
Ailənin baş tacıdır.
El gücü sel gücütək
Həyatı fəth edəcək.

***14 dekabr 2014-cü il***

## AYRUBƏ GƏLİN

***Bacımın gəlininə ithaf***

Gəl, götür üzündən
Rübabını sən.
Ay üzün görünsün,
Ay işıq saçsın.

Nurundan hər kəsə
Nur ehsan eylə.
Şirin kəlmələrlə
Can qurban eylə.

Qayınana, qayınata
Hörmətində ol.
Əziz baldızınla
Şən, mehriban ol.

Eltin sənin dostun,
Qaynın arvadı.
Qaynın baş tacındır
Qardaşın kimi.

Həyat davam etsin
Gözəl yuvada.
Sən də bu yuvanın
Doğma qızı ol.

Evin qonaq-qaralı
Sən də gülərüzlüsən.
Süfrə qurub könüldən
“Xoş gəldiniz”, -deyirsən.

Sən bir gözəl gəlinsən
Qayınananın yanında.
Eşqiylə bəslədiyi
Üzüyünün qaşısan.

Allah xoşbəxt eyləsin,
Sən də övlad görəsən.
Sən də gözəl bir gəlin
İstəyərək seçəsən.

Gördüyün yaxşılıqlar
Heç əvəzsiz qalmasın.
Özün təki saf gəlin,
Uğur qarşına çıxsın.

***14 dekabr 2014-cü il***

# EYYUB NİYYƏTLİ İNSAN

***Bacımın ərinə ithaf edirəm***

Bir insan tanıyıram,
Gözəl ailə başçısı.
Gözəl insan əslində,
Əsl insan simvolu.

Həyatı çox sevir o,
Həyata bağlı insan.
Aya, günə yüksəlmiş
Öz təmiz ad-sanıyla.

Əməlləri tərtəmiz,
Hər bir kəsə nümunə.
Mehriban, qayğıkeşdir
Hər insanla ürəkdən.

Sevgisi doğru sevgi,
Eşqi, qəlbi böyükdür.
Məhəbbəti tərtəmiz,
Günəş hərarətlidir.

İstiqanlı bu insan,
Kin-küdurət bilməyir.
Körpə uşaq qəlbitək
Çox şəffafdır, büllurdur.

Hər kəsi doğma bilir,
Ocağına səsləyir.
Hər kəsin qarşısına
Gülər üzlə boylanır.

Qonaq-qaralı evi,
Süfrəsi bol nemətli.
Ehsan qurban eyləyir,
Hər kəsi qonaq edir.

Gözəl xanımı ilə
Süfrələr açır elə.
Rəhmət qazanır eldən,
Hörmət edir ürəklə.

***14 dekabr 2014-cü il***

# BACIM SƏLMİ GÖZƏLDİR

***Bacım Səlmiyə ithaf***

Küssəm də, incisəm də,
Mənim əziz bacımdır.
Topuğuna dəyən daş
Ürəyimdə tikandır.

Allah onu qorusun,
Heç zaman üzülməsin.
Ailənin baş tacıdır,
Hər zaman başda dursun.

Mərd olub hər bir zaman,
Sözü kəsər deyibdir.
Hər bir bacı-qardaşın
Köməyinə yetibdir.

Canın qoyub zəhmətlə,
Qayğısını çəkibdir.
Qohum-qardaş yanında
Başıuca gəzibdir.

Hər zaman ehsan verir,
Əli rəhmi var onda.
Ürəyi çox kövrəkdir,
Əlinin aşiqidir.

Allah məhəbbət salıb
Ürəyinə, qəlbinə.
Əzəldən Zülfüqartək
Kəsərlidir zalimə.

Sözləri iti qılınc,
Zülfüqarın xəttidir.
Əbədi cənnətinə
Qovuşmaqçün yaranmış.

Allahım, sən rəhm eylə,
Bağışla onu bizə.
Onun gözəl qəlbindən
Nur gətir qəlbimizə.

***14 dekabr 2014-cü il***

# ƏFSANƏDİR QIZIMIZ

***Bacım qızına ithaf***

Əfsanə nazlı qızım,
İncələrdən incəsən.
Kövrək kəpənək kimi
Əl açsam, uçacaqsan.

Gəlir gül ətrin sənin
Çəmənlikdə güllərdən.
Səsin bülbül avazlı
Oxuyursan nəğmətək.

Ata-ana qoynunda
Bəslənib böyümüsən.
Qardaşlarına dayaq,
Məhəbbət bəsləmisən.

Sevimli gəlinlərin
Sevincinə dönmüsən.
Səni görməyən zaman
Tez axtarırlar səni.

Hardasan, tez qayıt gəl,
Səni gözləyirik biz.
Gözümüz yollardadır,
Sənin yerin bilinir.

***14 dekabr 2014-cü il***

## ÇÖRƏK NEMƏTDİR

Çörəklə başlayır
Haqqı sayımız.
Çörəklə and içir,
Çörəklə bitir.

Çörək müqəddəsdir
Ana südütək,
Vətənin gözütək,
Qəlbim, ruhumtək.

Çörək imtahandır,
Çörək şadlıqdır,
Bəşəriyyət qayğısı,
Bin-bərəkətdir.

Əziz insan gəlsə
Eldən, obadan,
Fərqi yoxdur, gəlsə də
Uzaq diyardan.

Süfrəyə birinci
Çörək, duz gəlir,
Ardınca Allah verən
Min nemət gəlir.

Yeyin çörəklərdən,
Nuş eyləyin siz.
Süfrəniz bol olsun,
Qəlbiniz geniş.

Çörəyi sevdirin övladınıza,
Süfrəni göstərin qonağınıza.
Açın süfrələri ürəyiniztək,
Düzün süfrələrə nazı-nemətdən.

***5 iyun 2014-cü il***

# VƏTƏN ANA YURDUMUZDUR

Canından keç vətən üçün,
Demə, canım çox şirindir.
Həyatından keç onunçun,
Demə, canım əzizdir.

Vətən ana yurdumuzdur,
Ana deyib səslə onu.
Döyüşə get, bəs eyləmə,
Anandır, səsləyir səni.

Oddan, alovdan libas gey,
Altdan, üstdən qıfıllan get.
Koroğlutək Misri qılınc,
Qurşaq bağla, qalxan tut get.

Qonşuların namərd çıxıb,
Qonşuluq haqqına girib.
Qıratını alıb gedib,
Torpağına gözün dikib.

Sən canından, qanından keç
Vətən azad olmaq üçün.
Dağıt ilanın yuvasın,
Başını əz, haqqa çat get.

Qələbəylə sən dön geri,
Vətənə layiqli əsgər ol.
Düşmənə yerini bildir,
Qolundan tut: -Rədd ol, dur get.

Söylə, cəhənnəmlik insan,
Haçanacan göz dikəcən
Özgəsinin torpağına,
Haçanacan susuyacan?

***20 iyun 2014-cü il***

# İRİ ADDIMLAR İLƏ

***Hörmətli Prezidentimiz cənab İlham Əliyevə ithaf edirəm***

Bu gün hər kəs razıdır
Doğma, əziz vətəndə.
Bu gün hər şey həll olub
İlhamın qərarıyla.

Halal olsun İlhama,
Vətəni tanıtdırdı.
Bayrağımız yellənir
Hər bir azad ellərdə.

Heydərə "rəhmət" deyir
Mənim mehriban xalqım.
Xatirəsi əzizdir,
Çıxmayır yaddaşlardan.

Unutmur oğlu, qızı,
Hər zaman düşür yada.
Keçdiyi şərəfli yol
Neçə qərinə yaşar.

Vətən eşqi qəlbində
Coşub-çağlayır hər an.
Xalqımız bərabərdir,
Dəstək verir İlahma.

Gülümsəyir, doğmadır
Dünyaya baxışları.
Beynəlxalq görüşləri
İnkişafdır, doğrudur.

Məlumdur saf niyyəti,
Məqsədi tam yönəldir.
İri addımlar ilə
Doğru, düzgün yoldadır.

***23 iyun 2014-cü il***

# BAĞRI YANIB LALƏNİN

Köksünü ötürür lalə,
Durub heç cür dayanmır.
Qərar tutmur heç yerində,
Qapqaradır kül içində.

Qaralmış qüssədən,
Bağrı oyulmuş.
Qəlbindəki tellər
Yanmış, kül olmuş.

Dərdi var lalənin,
Vətən dərdidir dərdi.
Əlacı yox dünayda,
Qəlbi qübardır sanki.

Qəm çəkir fikirdən,
Vətən həsrəti çəkir.
Damarı çatlayıb,
Qəlbi susuz qaradır.

Yağılar tapdağıyla
Bağrını əzib,
Qara daş basıbdır
Onun bağrına.

Doğulan körpəni,
Körpə balanı
Beşikdə boğubdur,
Səsini kəsib.

Düşmən olanda da
Dəyanətli ol,
Mərd ol, mətin ol,
Qana susama.

İnsanlıq adına
Ləkə gətirmə.
Layiqli düşmən ol,
Fidanı əzmə.

Demişdir hər zaman
Ata-babalar.
Düşmən olanda da
Haqqı itirmə.

Haqqı bilən deyər
Haqqı bilənlər.
Nə bilər haqqı bilməyən
Haramzadələr?

Deyirəm, dünyada
Haqq yerin tapsın.
Düşmənlər məhv olsun,
Kökü kəsilsin.

***24 iyun 2014-cü il***

# SARI QIZIL QİYMƏTLİDİR

Çörək Allahdan nemətdir,
Sünbülünə qurban olum.
Gözümüztək qoruyaq biz,
Danəsinə qurban olum.

İyi, qoxusu xoş gəlir,
Ürəyimə bir qidadır.
Çörəyi bölək dost ilə,
Dostluğumuz sınanmışdır.

Azad ölkəm vüqarlıdır,
Qonaqsevər mənim xalqım.
Neçə müharibə görüb,
Sınmayıbdır, mətinlidir.

Azad ölkəm, geniş yurdum,
Zəmilərim bol məhsullu.
Nemətindən bol-bol yığım,
Bərəkətli torpağımdır.

Basılmasın mənim yurdum,
Üzü gülməsin düşmənin.
Çörəyim bol, sünbülüm bol,
Sarı qızıl qiymətlidir.

***29 iyun 2014-cü il***

# BAĞLANIRSAN DÜNYAYA

Mən deyim, sən də söylə,
Otur, sənlə dərdləşək.
Bu dünya belə gəlib,
Bu dünya hara gedir?

Gərdişi-dünya qədim,
Əzəli bir macəra.
Sonu bilinməz onun.
Gələcəyi tapmaca.

İnsanlar bir-bir gəlir,
Doğulur bu dünyada.
Gedən zaman aparmır,
Hamısı qalır dünyada.

“Neyçün gəldim”, -soruşur,
Özünə sual verir.
Cavabını tapmayır,
Özünə məəttəl qalır.

Hər kəs bir cür anlayır,
Hər kəs birtəhər yozur.
Dünyanın damarını
Kortək tutub yeriyir.

Ey gidi dünya, -deyir,
Hər kəs maraq eyləyir.
Kimisinə gözyaşları,
Kimisinə həyat verir.

Kiminsə üzü gülür,
Həyatdan baş çıxarır.
Kim isə aciz qalır,
Hönkür-hönkür ağlayır.

Anaya sarılantək
Bağlanırsan dünyaya.
O isə səni görməyir,
Üzünü bərk turşudur.

Bəxtinə çox küskünsən
"Axı neyçün mən?" -deyir.
Məni alıb dünyadan
Öz dünyamdan eyləyir.

***30 iyun 2014-cü il***

## “GƏZMƏYƏ QÜRBƏT ÖLKƏ, ÖLMƏYƏ VƏTƏN”, -DEYİR

***Özümə ithaf edirəm***

Qəribliyin adı yad,
Qəribliyin üzü yad.
Qərib düşdüm vətəndən,
Qürbət ellərdəyəm mən.

Həsrət çəkirəm indi,
Sıxıntım üzür məni.
Ürəyimdə qübarım,
Üzüm gülməyir mənim.

Yaşam mənə haramdır,
Rahatlığım çəkilib.
Şəhər şirin yuxuda,
Mənim yuxum heç yoxdur.

Ayrı düşdüm elimdən,
Qovuşmağa güman yox.
Əlimi üzmüşəm mən,
Gücüm yox, tükənmişəm.

Vətən deyib ağlaram,
Ana deyib sızlaram.
Doğmalarım, dostlarım,
Qürbət ellərdəyəm mən.

Aman Tanrım, yardım et,
Bu əzabdan qurtarım.
Şeytanı çək yolumdan,
“Lənət şeytana”, -deyim.

Sanki əsirlikdəyəm,
Tikanlı məftil yolum.
İlantək sarılıbdır
Boynuma dolanıbdır.

Şəhərin səhər mehi
Günəşin şəfəqləri.
Mənim burnuma gəlir
Körpələrin qoxusu.

Yayılıbdır ətrafa
Vətənin təravəti.
İnsanlar gülər üzlə
Salamlayırlar məni.

Azərbaycan qızları
İsmətli, gözəldirlər.
Gözəllikdə tayı yox,
Həm də şirindildirlər.

Düşünürəm vətəni,
Ürəyim bərk döyünür.
“Gəzməyə qürbət ölkə,
Ölməyə vətən”, -deyir.

***1 avqust 2014-cü il***

# İDEALIM, AMALIM

Sıra dağlar, gen düzlər
Əzəmətli millətim.
Əl-ələ verib, durub
Düşmən çəpəri təki.

Bu torpağın oğludur,
Torpağına bağlıdır.
Bu torpağın qızları
Nigartək qeyrətlidir.

Koroğlu dəlilərin
Yığıbdır öz başına.
Düşmənin mənfur üzün
Tanıdıbdır xalqına.

Millətim, xalqım mənim,
Gəlin, verək əl-ələ.
Həcər, Nəbi qeyrətli
Haqq səsiylə ellərə.

Körpələrin beşikdə
Uyuması, yatması.
Əsgərlərə bağlıdır
Döyüşün qələbəsi.

Sülhsevərdir millətim,
Qəm-qüssə heç görməsin.
Xain qonşularından
Hər zaman uzaq olsun.

Qərar vermək asandır,
Sonu xeyirli olsun.
Yumruq təki bir olaq,
Körpələr şən yaşasın.

Vüqarlı xalqım mənim
Əyilməz polad kimi.
Sönməz həyat eşqidir
İdealım, həm amalım.

***1 sentyabr 2014-cü il***

# ÇİÇƏKLƏR ÇOX ƏYLƏNİR

Ətir saçır gül-çiçək
Xoş səfalı çəməndə.
Hər kəsin istəyi bol
Gül-çiçək dəstəyindən.

Rəngarəng, al-əlvandır,
Gül-çiçəklər xoş gəlir.
Həyat möcüzəsidir,
Hər kəsi bihuş edir.

Yamyaşıldır, düzülüb,
Sarılıb bir-birinə.
İncə ləçəkləriylə
Sevinirlər gizlicə.

Yarpaqlar çox yellənir,
Çiçəklər çox əylənir.
Günəş də göydən baxır
Gülümsəyir, sevinir.

Şəfəq saçır güllərə,
Onlara işıq verir.
Fidanlar boy atsınlar,
Laylay çalır beşikdə.

***28 iyun 2014-cü il***

## YAĞIŞ YAĞIR

Təbiətin qəribə
Xasiyyətləri vardır.
Gah çılğın dənizdirlər,
Gah sakit görünürlər.

Yayın istisidir,
İyun ayıdır,
Sanki payız gəlib,
Yağışlar yağır.

Külək dava salır,
Tufan qoparır.
"İyun, nə tez gəldin?-
Mən varam", -deyir.

İsti iyun ayı
Təslim olubdur,
Yağışa, küləyə
Yer göstəribdir.

30 iyun tarixi
Möcüzətək görünür,
Hər kəs yadına salıb,
Gülümsəyib dinməyir.

Yağışdır da, neyləsin,
Göydən gələn nurdu bu.
İnsanlara doğmadır,
Allahdan böyük paydır.

Sevinirlər uşaqlar,
Ayaqyalın gəzirlər.
Başı açıq qaçışır,
Yağış gur yağsın, -deyir.

Yağışdan güc alırlar
Üst-başını isladıb.
O baş-bu başa qaçır
Qucaq açır, sevinir.

***30 iyun 2014-cü il***

# ÇILĞIN TƏBİƏT

Əsir payız yeli
İsti iyunda.
Təbiət hökm edir
Bugünkü gündə.

Yağış, tufan sarır
İsti havada.
Kəndi, rayonları
Yağış, sel yuyur.

30 iyundur
Təqvimdə bu gün,
Tarixə yazılsın
Bugünkü hökm.

Nədən belə çılğın,
Bu dəli külək?
Nədən qəhərlidir,
Gözləri dolub?

Qəlbinə kim dəyib,
Qəlbini qırıb?
Ağlayır gecə-gündüz
Ara verməyir.

Ürəyi dolubsa,
Bir dərdi vardır.
Söyləmir dərdini,
Dünya sirlidir.

Ancaq acıqlıdır,
Hirsli görünür.
Bərələri aşır,
Yıxıb dağıdır.

***30 iyun 2014-cü il***

# ARININ PƏTƏYİSƏN

Şad xəbər söylə,
Sevinim, gülüm.
Şirin dilindən,
Balından yeyim.

Qəşəng gülüşün
Şadlıq gətirir.
Xoş günlər üçün
Müjdə gəzdirir.

Təbiət gözəl
Min dava-dərman.
Arılar, güllər,
Nemət, bal verir.

Həyat yaşasın,
Arı can verir.
Ağzın bal dadsın,
Pətək bal verir.

Arı sürətlə
Gül-çiçək yığır.
Onlardan şirə
Çəkir durmayır.

Baxıb zövq alır
Öz zəhmətindən.
Hər kəsə nümunə
Öz işlərindən.

Yeyənlər bilər
Qədrini onun.
Arının hörmətin,
Balın ləzzətin.

Arı müqəddəsdir,
Saf niyyətlidir.
Məqsədi dürüstdür,
Xoş məramlıdır.

Arılar güllərdə
Taxt-tac qurublar.
Qərarları birdir,
Əlbir olublar.

Həyatın dadı
Bal pətəyində,
Arının dadı
Gül ləçəyində.

***4 iyul 2014-cü il***

# MÜNDƏRİCAT


Ön söz.........................................................3
Gözünün biri göy, birisi yaşıl.............................6
Tale ayırdı bizi ................................................8
Ellər gözəli.................................................10
Ellər elçisi ..................................................12
Ürək daimi yanar ........................................14
Həqiqət çarçısı ............................................15
Elşən, ürəyim fərəhlənir ..............................17
Nənənin, babanın balası................................19
Almanın yarısı .............................................21
Sən qəlbini bağışla........................................23
Ulduzlu gecələr ............................................24
Gecə olur tən yarı .........................................26
Qələmim ilə ..................................................28
Xoşbəxtlik əlindədir .....................................30
Canın qurban edəsən ....................................32
Uca durun hər zaman.....................................34
Məhəbbət əbədi .............................................36
Fatehim, Giləm, Məryəmim mənim ...............38
Həkimlər ......................................................40
Qızıl balıq.....................................................42
Gözəl qızlar dünyada ....................................44
Sevgi, məhəbbət olsun! .................................46

Acı həyatım ....................................................48
Körpə səsi .......................................................54
Qadir olan Allah................................................55
Rus gözəli........................................................57
Alimin qızı Fərqanə xanım ............................58
Ad günüm mənim ...........................................62

## UŞAQ ŞEİRLƏRİ

Fateh məktəbə gedir .......................................65
Qoçaq cırtdan ..................................................66
Kəpənək...........................................................67
Yağış yağır .......................................................68
Son zəng...........................................................69
Azərbaycan yurdumuz .....................................70
Fateh nəvəm.....................................................71
8 martdır, anacan!............................................72
Fateh bilik öyrənir ..........................................73
Ahu gözlü nəvəm.............................................74
Uşaqlar .............................................................75
Məryəm əlaçıdır...............................................76
Bahar gəldi .......................................................77
Məryəm qızım .................................................78
8 mart bayramı ................................................79
Mən Laləyəm....................................................80
Oyunçudur Məryəm.........................................81

Qış gəlib ........................................................82
“Gedbirt” pişiyim mənim ...............................83
Mehriban dostlar ............................................84
Məryəmin ad günüdür ...................................85
Çoban iti .........................................................86
Məryəmin cücəsi ............................................87
Fateh və külək ................................................88
Alma ...............................................................89
Arı balı ...........................................................90
Zəhmətkeş qarışqa ........................................91
Bahar gəlir .....................................................92
Ata-ana sevinci ..............................................93
Məryəm xanım çiçəkdir .................................94
Nəvəm nağılı sevir .........................................95
Həyat bizə bir bəxşiş ......................................96
“Polad necə bərkidi?” ...................................97
Əlirza bəy, toyundu ......................................103
Hər kəsin gedəni gəlsin ................................106
Nənələr halay çəkər .....................................107
Sirli qadın ....................................................109
Füzulinin Leylisi ..........................................111
Sən yadıma düşəndə ....................................118
Günah olur ...................................................119
Yaralar qövr eyləyir .....................................120
Üz çevirmə ...................................................122
Səssiz gecə ...................................................124

Olan mənə olubdur .......................................125
Aç niqabı üzündən ..........................................127
İnsanı sev hər zaman ......................................129
Günəş üzlü gözəlim .........................................131
Heç ayrılıq olmasın ........................................132
Ürəklər donarsa ...............................................134
Fikrim, ruhum səninlə .....................................136
Başqasının yarısan ..........................................138
Hər kəsi bulağa çək .........................................140
Soldum xəzəl kimi ...........................................142
Ay Nigar...........................................................144
Yeni həyat .......................................................146
Günəş təkin ......................................................147
Mənim Gilə nəvəm ..........................................149
Balaca Gilə xanım ...........................................151
Mənim göyçək Giləm ......................................152
Düşün, daşın, ey insan! ..................................154
Yerini bilməlidir...............................................156
Əmrini verən Allah .........................................158
Günahkar qulun ...............................................160
Fateh Soltan məktəbdə ...................................162
Qayğı göstərməlidir .........................................164
Gilə adlı yarım var ..........................................166
Məktəb zamanı.................................................169
Əlirzanın atası ................................................170
Əlirzadır bal adı ..............................................171

İki qardaş ........................................................173
Ayrubə gəlin ..................................................174
Eyyub niyyətli insan ......................................176
Bacım Səlmi gözəldir ....................................178
Əfsanədir qızımız............................................180
Çörək nemətdir ...............................................181
Vətən ana yurdumuzdur..................................183
İri addımlar ilə ................................................185
Bağrı yanıb Lalənin ........................................187
Sarı qızıl qiymətlidir ......................................189
Bağlanırsan dünyaya ......................................190
“Gəzməyə qürbət ölkə,
ölməyə vətən,” deyir .......................................192
İdealım, amalım ..............................................194
Çiçəklər çox əylənir ......................................196
Yağış yağır ......................................................197
Çılğın təbiət ....................................................199
Arının pətəyisən..............................................201

Yığılmağa verilmişdir: 01.06.2016
Çapa imzalanmışdır: 20.06.2016
Kağız formatı: 60x84 1/16
Fiziki çap vərəqi: 13
Mətbəə kağızı: № 01
Sifariş: № 012 Sayı: 1000 nüsxə
***Ofset üsulu ilə çap olunmuşdur*.**

*Kitab "YAZIÇI" nəşriyyatında yığılıb səhifələnmişdir,*
*Ünvan: Bakı, Mətbuat pr. 24,*
*Telefon:(99412) 510-68-49, (99412) 510-79-94*
***E-mail: desinger2010@mail.ru***